Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 13 (8036) CÜMƏ, 18 yanvar 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## İnkişaf, sabitlik və davamlı islahatlar ölkəsi

### Nailiyyətlərin təməlində dayanan əsas səbəb sarsılmaz xalq-iqtidar birliyidir

**Çağdaş dünyamızın mənzərəsi olduqca fərqlidir. Bu fərqlilik içərisində daha çox diqqəti cəlb edən odur ki, ayrı-ayrı yerlərdə mövcud olan hərbi-siyasi ziddiyyətlər azalmaq əvəzinə daha da güclənir. Söndürülən bir müharibə ocağının yerinə başqası alovlanır. Hərbi-siyasi, milli-etnik və dini toqquşmalar, ayrı-ayrı qütblərdə dayanan dövlətlərin intensivləşən siyasi çəkişmələri bitmək bilmir. Hər ötən gün geosiyasi mübarizənin, ölkələrin bir-birinin işinə kobudcasına qarışmasının və hərbi ritorikanın yüksəlməsi ilə yadda qalır.**

#### Azərbaycan öz yolu ilə uğurla irəliləyir

Geridə qalan 2018-ci il bu baxımdan hər dövlətin tarixində fərqli iz qoydu. Bəzisi qanlı toqquşmaların, vətəndaş müharibələrinin, hərbi müdaxilələrin ağrı-acısını yaşadı, bəzisi isə siyasi-iqtisadi böhranlardan əziyyət çəkdi. Bir qisim dövlət isə sabitlik və əmin-amanlıq içərisində öz yolu ilə addımladı. Görünən odur ki, sabitlik inkişaf, hərbi-siyasi dartışmalar xalqlara və ölkələrə bəlalar, faciələr gətirir.

Azərbaycandakı vəziyyətə isə dünyanın bir çox ölkələri sadəcə, həsəd apara bilər. Təsadüfi deyil ki, Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev nitqinə elə bu mövzu ilə başlayaraq Azərbaycanı inkişaf, tərəqqi və sabitlik ölkəsi adlandırdı: *"2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. Dünyada və bölgəmizdə gedən proseslərdən asılı olmayaraq, Azərbaycan uğurla, sürətlə inkişaf etmişdir. Keçən il dünyanın müxtəlif bölgələrində, o cümlədən bizim bölgəmizdə çox xoşagəlməz proseslər gedirdi, yeni risklər, yeni təhdidlər yaranır. Əvvəlki illərdə başlanmış münaqişələr, qanlı toqquşmalar davam edir, bir çox yerlərdə sabitlik pozulur, kütləvi etiraz aksiyaları geniş vüsət alır. Bu mənfi mənzərə fonunda Azərbaycanın uğurları özünü daha da qabarıq şəkildə büruzə verir. Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir".*

İnkişaf yolunda möhtəşəm nailiyyətlərə imza atmaqla irəliləyən Azərbaycan qısa zaman kəsiyində böyük uğurlar əldə edib, sosial-iqtisadi göstəricilərinə görə dünya miqyasında liderlər mövqeyinə yüksəlib. Bunun nəticəsində həm də yerləşdiyi regionun iqtisadi və siyasi cəhətdən aparıcı dövlətinə çevrilən respublikamız dünya birliyinə fəal inteqrasiya istiqamətində də mühüm addımlar atıb və beynəlxalq hüququn tam müstəqil, cəsarətli mövqeyi ilə seçilən, siyasi kursu nəzərə alınan subyektinə çevrilib.

2018-ci ildə Azərbaycanın uğurları kifayət qədər çox oldu. Yerləşdiyi region ətrafında cərəyan edən ziddiyyətli proseslər şəraitində ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində daxili sabitliyini saxlamaqla və inkişafını təmin etməklə, iqtisadiyyatını müsbət artım dinamikasına kökləməklə və irimiqyaslı layihələr həyata keçirməklə beynəlxalq səviyyədəki nüfuz və rəğbətini daha da möhkəmləndirməyə müvəffəq oldu. Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində 2018-ci ildə "Cənub qaz dəhlizi" və onun seqmentlərindən olan Transanadolu təbii qaz boru kəməri (TANAP) işə salındı. Bundan bir neçə gün əvvəl isə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi istifadəyə verildi. İl ərzində Türkiyənin İzmir şəhərində Azərbaycanın sərmayəsi ilə inşa olunan "Star" Neft Emalı Zavodu açıldı, ölkəmizin üçüncü peyki olan "Azerspace 2" orbitə çıxarıldı.

#### Dövlətin və xalqın maraqlarına xidmət edən siyasət

Bütün bu uğurların kökündə dayanan əsas səbəblər Azərbaycandakı ictimai siyasi-sabitlik və xalq-iqtidar birliyidir. Sabitlik və hakimiyyətlə xalq arasında birlik olmasa inkişafdan söhbət gedə bilməz. Lakin bizi bu günlərə gətirən yollar heç də həmişə hamar olmayıb. Ən azından, müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan qüvvələrin başıpozuq fəaliyyətlərinin nəticəsində Azərbaycanda təhlükəsizliyə təhdidlərin baş alıb getməsi çoxumuzun yaddaşında dərin iz buraxıb. Yalnız ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkədə sabitlik bərqərar edilib, ictimai-siyasi sabitlik üçün təhlükə doğuran zərərli meyillərə, qanunsuz silahlı birləşmələrə qarşı uğurlu və təxirəsalınmaz tədbirlər həyata keçirilib. Məhz o illərdə hakimiyyətdə olan iqtidarların yarıtmaz fəaliyyətləri göstərdi ki, sabitlik və xalq-iqtidar birliyi olmayan yerdə dövlət yalnız uçuruma gedər.

Beləliklə, Azərbaycanın bütün nailiyyətləri və bütövlükdə ölkəmizin hazırkı reallıqları ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf kursunun nə dərəcədə mükəmməl xarakter daşıdığını təsdiq edir. Həm də bir daha aydın olur ki, bu siyasət yeni çalarlarla daha da zənginləşdirilərək dövrün tələblərinə uyğun formada Prezident İlham Əliyev tərəfindən böyük müvəffəqiyyətlə davam etdirilir. Ən əsası isə odur ki, bu siyasət xalqın maraqları üzərində qurulduğu üçün Azərbaycanda güclü xalq-iqtidar birliyi var.

*Ardı 4-cü səh.*

## Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ildə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük yazıçı, dramaturq, publisist və ictimai xadim Cəlil Məmmədquluzadənin anadan olmasının 150 illiyi tamam olur.

Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatının yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış və bütöv bir ədəbi məktəb formalaşdırmış qüdrətli şəxsiyyətdir. Vətəndaş yazıçının bədii nailiyyətlərlə zəngin irsində azərbaycançılıq məfkurəsi dövrün ictimai-siyasi fikrinin aparıcı amili kimi dolğun ifadəsini tapmışdır. Sənətkar həyat həqiqətlərini, ictimai mühiti hərtərəfli əks etdirən və bədii-estetik dəyər daşıyıcısına çevrilən rəngarəng obrazlar qalereyası yaratmışdır. Ana dilinin saflığı uğrunda daim mübarizə aparmış Cəlil Məmmədquluzadənin meydana gətirdiyi qiymətli dram və nəsr əsərləri, parlaq publisistika dərin humanist məzmuna malik olub, özündə milli və ümumbəşəri dəyərlərin vəhdətini ehtiva edir. Azərbaycanda və onun hüdudlarından kənarda geniş yayılaraq milli oyanışa, yeniləşmə hərəkatına yol açan və azadlıq ideyalarının inkişafına qüvvətli təsir göstərən "Molla Nəsrəddin" jurnalı məhz Mirzə Cəlil dühasının məhsuludur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının çoxəsrlik mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr vermiş söz ustası Cəlil Məmmədquluzadənin 150 illiyinin layiqincə qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, böyük demokrat ədib Cəlil Məmmədquluzadənin 150 illik yubileyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 yanvar 2019-cu il*

## Əsas məqsəd Azərbaycan vətəndaşının sosial rifahını təmin etməkdir

### Prezidentin müəyyən etdiyi bu siyasət dəyişməz olaraq qalır

**Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ötən ilin sosial-iqtisadi nəticələri yüksək qiymətləndirilmiş, cari ilin gözləntiləri açıqlanmışdır. Ölkədə həyata keçirilən sosial siyasətə xüsusi yer ayıraraq görülən işləri təqdir edən dövlət başçısı 2019-cu ildə də bu siyasətin davam etdiriləcəyini bildirmişdir.**

Ölkə rəhbəri vurğulamışdır ki, həyata keçirilən iqtisadi və sosial siyasətin məqsədi Azərbaycan vətəndaşının rifahına xidmət etməkdir. Bu siyasət cəmiyyətin bütün təbəqələrini əhatə etsə də, sözügedən istiqamətdə tədbirlər müəyyənləşdirilərkən sosial müdafiəyə daha çox ehtiyacı olan vətəndaşlara üstünlük verilir. Prezident məhz bu təbəqəyə qayğı göstərməyin dövlətin əsas məqsədi olduğunu bildirmişdir: "Şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə evlərin verilməsi prosesi davam etdiriləcək. Əgər keçən il 626 mənzil verilibsə, bu il ən azı, 800 mənzil veriləcək. Hesab edirəm ki, bu, çox düzgün addımdır. Çünki bu ailələr buna layiqdirlər. Biz həmişə onların problemlərini diqqət mərkəzində saxlayırıq. Altı mindən çox ailə artıq dövlət tərəfindən evlərlə təmin edilib... Bu vətəndaşlara mənzil hədiyyə etmək hesab edirəm ki, bizim borcumuzdur. Bunu edirik və edəcəyik. Bu proses davam edəcək, bütün şəhid ailələrinin nümayəndələri evlə təmin olunacaqlar".

*Ardı 4-cü səh.*

## Güclənən Azərbaycan və tənəzzüldən çıxa bilməyən Ermənistan

### Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin yaratdığı yeni reallıq Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın maraqları çərçivəsində həllini tezləşdirə bilər

Dövlətlərin inkişaf səviyyəsini, nüfuzunu, beynəlxalq etimadını və bu kimi digər xüsusiyyətlərini xarakterizə edən əsas cəhətlərdən biri onun yeritdiyi siyasətin məzmun və mahiyyətidir. Təbii ki, hər ölkə dünya birliyinin subyekti olaraq həm özünün milli maraqlarına cavab verən və həm də müstəqil siyasət həyata keçirmək istəyir. Məhz bu kontekstdən yanaşaraq deyə bilərik ki, yerləşdiyi regionun lider dövləti olan Azərbaycanın həm də beynəlxalq birlikdəki yerini möhkəmləndirməsi, dünyada və regionda söz sahibinə çevrilməsi dünya miqyasında qəbul edilən reallıqdır.

#### Nüfuz və söz sahibi

Respublikamızın nüfuz və söz sahibi olmasını göstərən bir çox amilləri sadalamaq mümkündür ki, bunlardan ən başlıcası Azərbaycanın yeritdiyi müstəqil siyasətdir. Bununla bağlı kifayət qədər və beynəlxalq səviyyədə öz təsdiqini və dəstəyini tapmış faktlar ortaya qoymaq mümkündür. Azərbaycanın həyata keçirdiyi enerji diplomatiyası, sürətli sosial-iqtisadi inkişafı, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ortaya qoyduğu prinsipial mövqeyi, öz ərazilərini məhz dialoq və əməkdaşlıq üçün açıq olduğunu birmənalı şəkildə elan etməsi bu barədə kifayət qədər aydın fikir yeritməyə əsas verir.

Digər tərəfdən Azərbaycanın sivilizasiyalar və mədəniyyətlər arasında sülhü möhkəmləndirən, humanitar əməkdaşlığa çağıran dialoq təşəbbüsləri bütün dünyada maraq doğurur. Eyni zamanda Azərbaycanın həyata keçirdiyi qlobal iqtisadi layihələr, ölkəmizin təşəbbüsü və fəal iştirakı ilə formalaşan yeni əməkdaşlıq formatları regionda iqtisadi və sosial rifahın, təhlükəsizlik və qarşılıqlı səmərəli əməkdaşlıq mühitinin yaranmasına və inkişafına mühüm təsir göstərir. Bütün bunlarla yanaşı, Azərbaycan müstəqil siyasət yeridərək qlobal güclərin yürütdüyü təzyiq və təcrid siyasətinə qoşulmur, İran və Rusiya ilə qarşılıqlı maraqlara cavab verən əməkdaşlıq əlaqələrini, dostluq və mehriban qonşuluq siyasətini daha da gücləndirir.

Azərbaycanın Ermənistanı çıxmaq şərtilə bütün region dövlətləri ilə münasibətləri yüksək səviyyədədir. Onların əksər qismi ilə respublikamızı tək mehriban qonşuluq və dostluq münasibətləri deyil, həm də strateji əlaqələr birləşdirir. Məsələn, Azərbaycan və Rusiya prezidentlərinin 2018-ci ildə 6 dəfə görüşmələri iki dövlət arasındakı güclü siyasi əlaqələrin olmasının bariz nümunəsidir.

*Ardı 3-cü səh.*

## ASAN yolla rahat HƏYAT

### İlham Əliyevin yaratdığı yeni Azərbaycan brendi qısa müddətdə xalqın böyük etimad və rəğbətini qazanıb

**Operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq... Yaradıldığı gündən fəaliyyətini "vahid məkan" prinsipi əsasında quran Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzləri 6 ildir ölkə vətəndaşlarının xidmətindədir.**

Prezident İlham Əliyevin şəxsi təşəbbüsü ilə yaradılan və 2013-cü ildə 5 mərkəz, 2 səyyar avtobusla xidmətə başlayan "ASAN xidmət" yenicə qədəm qoyduğumuz 2019-cu ildə 15 xidmət mərkəzi, 1 qatar və 10 səyyar avtobusla ölkənin 75 faizini əhatə edir. Əgər fəaliyyətə başlayanda 20 xidmət təqdim edilirdisə, bu gün 11 dövlət orqanı, özəl şirkət, müəssisələr ümumlikdə 320-yə yaxın xidmət göstərir.

2016-cı ildən isə xidmətin fəaliyyətinin genişləndirilməsi fonunda yenilik yaşandı - "ASAN Həyat" kompleksləri yaradılmağa başlanıldı və ilk belə kompleks respublikanın cənub bölgəsində - Masallı şəhərində yaradıldı.





#### Operativ xidmət, istirahət və əyləncə

"ASAN Həyat" kompleksləri vətəndaş rahatlığı üçün həyat standartlarının yaxşılaşdırılmasına xidmət edən müxtəlif sahələri əhatə edir və vətəndaşlar tərəfindən də çoxluqla qarşılanır. Burada "ASAN xidmət" mərkəzi ilə yanaşı, istirahət üçün park, kinoklub, intellektual əyləncə obyektləri də yaradılır.

Elə Azərbaycanın ilk "ASAN Həyat" kompleksində də belə təkmil imkanlar mövcuddur. Vətəndaşlar operativ və gülərüz xidmətlə yanaşı, bu kompleksin istirahət və əyləncə imkanlarından da istifadə edə bilirlər.

Biz də bu mənzərənin şahidi olmaq üçün Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyevin müşayiətilə Masallıya yollandıq.

#### 9 şəhər və rayon, 300-dən çox müxtəlif xidmət

Yanvar ayı olsa da, sanki günəşli yaz səhəri açılıb Masallıda... Şəhərin Heydər Əliyev prospektində inşa olunan "ASAN Həyat" kompleksinin ətrafındakı parkda salınan yaşıllıq, tər gül-çiçəklərin ətri xoş ovqat yaradır. Kənardan tamaşa etdikdə kiçik bir şəhərciyi xatırladır bura...

*Ardı 5-ci səh.*

## "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1084; 2006, № 12, maddə 1031; 2008, № 6, maddə 462; 2011, № 7, maddə 592; 2014, № 12, maddə 1516; 2016, № 4, maddə 643) aşağıdakı dəyişikliklər edilsin:

1. 30.3-cü maddədə "bütün sənədlər" sözləri "sənədlər, bu qanunun 32.2-1-ci maddəsinin tələblərinə əməl edilməklə," sözləri ilə əvəz edilsin.

2. 32.2-ci maddədə "inzibati orqan" sözlərindən sonra ", bu qanunun 32.2-1-ci maddəsinin tələblərini nəzərə alaraq," sözləri əlavə edilsin.

3. Aşağıdakı məzmunda 32.2-1-ci maddə əlavə edilsin:

"32.2-1. İnzibati orqan inzibati icraat üçün zəruri olan və digər inzibati orqanın sərəncamında olan sənədlərin və ya məlumatların ərizəçi tərəfindən əldə olunmasını tələb edə bilməz. İnzibati icraat üçün zəruri olan və digər inzibati orqanın sərəncamında olan sənədləri və ya məlumatları inzibati orqan özü əldə edir. İnzibati orqanın həmin sənədlərin və ya məlumatların əldə olunmasını ərizəçidən tələb etməsi Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati məsuliyyətə səbəb olur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 dekabr 2018-ci il*

## "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1383-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1383-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 yanvar 2019-cu il*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438; Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1248-VQD, 1251-VQD, 1254-VQD nömrəli, 30 oktyabr tarixli 1301-VQD, 1307-VQD nömrəli, 2 noyabr tarixli 1326-VQD nömrəli, 30 noyabr tarixli 1363-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 116.1-ci maddəyə "279.0.1," rəqəmlərindən sonra "393-1.2, 393-1.4," rəqəmləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 393-1-ci maddə əlavə edilsin:

**"Maddə 393-1. Mənzil qanunvericiliyinin pozulması**

393-1.1. Kooperativ binanın tikintisi və (və ya) yenidən qurulması tam başa çatdıqdan və həmin binada mövcud olan yaşayış və qeyri-yaşayış sahələrinin ümumi sayının əlli faizindən çoxuna mülkiyyət hüququ mənzil-tikinti kooperativinin üzvlərinə keçdikdən sonra bir ay müddətində mənzil-tikinti kooperativinin qanunla müəyyən olunmuş qaydada ləğvi və ya mənzil mülkiyyətçilərinin müştərək cəmiyyətinə çevrilməsi barədə qərar qəbul edilməməsinə və ya qəbul edilmiş həmin qərarla bağlı hüquqi şəxslərin qeydiyyatı haqqında qanunvericiliyə uyğun olaraq zəruri tədbirlərin görülməməsinə görə -

vəzifəli şəxslər iki min manat məbləğində, hüquqi şəxslər beş min manat məbləğində cərimə edilir.

393-1.2. Çoxmənzilli binanın idarəetmə üsulunun seçilməsi məsələsinin həlli üçün həmin binanın yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən Azərbaycan Respublikasının Mənzil Məcəlləsi ilə müəyyən olunmuş qaydada tədbirlərin görülməməsinə görə -

vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir.

393-1.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydanı pozmaqla, çoxmənzilli binanın idarə edilməsi, habelə həmin qaydanın müddəalarının (o cümlədən, həmin qaydada edilən sonrakı dəyişikliklərin) çoxmənzilli binanın idarə edilməsi müqaviləsində əks etdirilməməsinə görə -

vəzifəli şəxslər beş yüz manatdan səkkiz yüz manatadək məbləğdə, hüquqi şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.

393-1.4. Çoxmənzilli binanın sahə mülkiyyətçisi tərəfindən ona məxsus olan sahənin saxlanması xərclərini, habelə mənzil qanunvericiliyinə uyğun olaraq çoxmənzilli binanın ümumi əmlakının saxlanması xərclərini vaxtında və tam məbləğdə çəkməkdən boyun qaçırılmasına görə -

ödənilməli olan ödənişlərin məbləğinin yüz faizindən yüz əlli faizinədək məbləğdə cərimə edilir.

393-1.5. Ağır xroniki xəstəliklərə düçar olmuş şəxsin sosial kirayə müqaviləsinə əsasən yaşadığı və ya köçdüyü yaşayış sahəsinin ikinci əldən kirayəyə verilməsinə görə -

yüz manat məbləğində cərimə edilir.

393-1.6. Çoxmənzilli binanın sahə mülkiyyətçilərinə Azərbaycan Respublikasının Mənzil Məcəlləsi ilə müəyyən olunmuş qaydada binanın idarə edilməsi üsulunun seçilməsində maneçilik törədilməsinə görə -

vəzifəli şəxslər üç yüz manatdan səkkiz yüz manatadək məbləğdə, hüquqi şəxslər min manatdan iki min manatadək məbləğdə cərimə edilir.".

**Maddə 2.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 393-1.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətanın törədilməsinə görə məsuliyyət müvafiq icra hakimiyyəti orqanının çoxmənzilli binanın idarə edilməsi ilə bağlı müəyyən etdiyi qayda qüvvəyə mindikdən sonra yaranır.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2018-ci il*

## "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 18 dekabr tarixli 1395-VQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 18 dekabr tarixli 1395-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 393-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə baxan müvafiq icra hakimiyyəti orqanı barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 18 dekabr tarixli 1395-VQD nömrəli Qanununun 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 yanvar 2019-cu il*

## Azərbaycan Respublikasının 2016-cı il 18 mart tarixli 180-VQ nömrəli Qanunu ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin Siyahısı"nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının 2016-cı il 18 mart tarixli 180-VQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 635) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 37-1-ci hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 37-1. | Qabapentin. Bütün qabapentin tərkibli dərman vasitələrinə şamil olunur. (1-(Aminometil) tsikloheksansirkə turşusu) | 5 |

2. 79-cu hissədən "100mq-150mq-200mq və daha artıq" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2018-ci il*

## "Uşaq hüquqları haqqında" və "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 484; 2001, № 3, maddə 143, № 11, maddələr 676, 687, № 12, maddə 731; 2002, № 5, maddə 241, № 6, maddə 328; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 7, maddə 507; 2006, № 2, maddə 75; 2007, № 6, maddə 560; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 4, maddə 275; 2013, № 11, maddə 1317; 2015, № 5, maddə 484; 2016, № 6, maddə 968; 2017, № 7, maddə 1263) 11-ci maddəsinin ikinci hissəsində ", məktəbdə, məktəbəqədər və məktəbdənkənar uşaq təlim-tərbiyə" sözləri "və təhsil" sözləri ilə əvəz edilsin, 27-ci maddəsinin ikinci cümləsindən ", məktəbəqədər və məktəbdənkənar müəssisələrdə" sözləri çıxarılsın.

**Maddə 2.** "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 392; 2001, № 11, maddələr 676, 699, № 12, maddə 731; 2007, № 11, maddə 1053; 2010, № 4, maddə 280; 2011, № 7, maddə 602; 2014, № 11, maddə 1340; 2015, № 10, maddə 1104; 2017, № 1, maddə 30) 6-cı maddəsinin ikinci hissəsinin üçüncü bəndindən "uşaqların məktəbəqədər tərbiyə ocaqlarında, yeniyetmələrin və gənclərin müvafiq təhsil müəssisələrində" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 dekabr 2018-ci il*

## "Uşaq hüquqları haqqında" və "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1387-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Uşaq hüquqları haqqında" və "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1387-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Uşaq hüquqları haqqında" və "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Uşaq hüquqları haqqında" və "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 yanvar 2019-cu il*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438; Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1248-VQD, 1251-VQD və 1254-VQD nömrəli, 30 oktyabr tarixli 1301-VQD və 1307-VQD nömrəli qanunları) aşağıdakı məzmunda 594.0.4-1-ci maddə əlavə edilsin:

"594.0.4-1. inzibati orqan tərəfindən inzibati icraat üçün zəruri olan və digər inzibati orqanın sərəncamında olan sənədlərin və ya məlumatların əldə olunmasının ərizəçidən tələb edilməsinə;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 dekabr 2018-ci il*

## "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1384-VQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1384-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 yanvar 2019-cu il*

## "Azərbaycan Respublikasının 2016-cı il 18 mart tarixli 180-VQ nömrəli Qanunu ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin Siyahısı"nda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1421-VQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 2016-cı il 18 mart tarixli 180-VQ nömrəli Qanunu ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin Siyahısı"nda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1421-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının 2016-cı il 18 mart tarixli 180-VQ nömrəli Qanunu ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin Siyahısı"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının 2016-cı il 18 mart tarixli 180-VQ nömrəli Qanunu ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin Siyahısı"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 yanvar 2019-cu il*

# Azərbaycan Respublikasında özəl ümumölkə teleradio yayımçılarına birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında özəl teleradio yayımçılarının ölkə haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, xaricdə yaşayan azərbaycanlıların öz vətənləri haqqında daha dolğun məlumatlandırılması, Azərbaycan xalqının mədəniyyətinin və milli-mənəvi dəyərlərinin təbliği sahəsində fəaliyyətinin stimullaşdırılması, həmçinin texniki imkanlarının artırılması və əhatə dairəsinin daha da genişləndirilməsi zəruriliyini nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasında fəaliyyət göstərən özəl ümumölkə teleradio yayımçılarının "Azerspace-1" peyki və digər vasitələrlə yayım həyata keçirməsinə əlavə dəstək verilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurasına 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 yanvar 2019-cu il*

# Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunu optimallaşdırmaq və idarə edilməsini təkmilləşdirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Borcunun İdarə Edilməsi Agentliyi ləğv edilsin və onun funksiyaları Nazirliyin Aparatına verilsin.

2. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlıq Agentliyinin əsasında Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyi yaradılsın.

3. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Qiymətli Metallar və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti ləğv edilsin.

4. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyində Gənclərin Problemləri üzrə Elmi Araşdırmalar Mərkəzi ləğv edilsin.

5. Bakı şəhərində, habelə "ASAN xidmət" mərkəzlərinin yerləşdiyi Azərbaycan Respublikasının digər inzibati ərazi vahidlərində "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının 5-ci hissəsində nəzərdə tutulan dövlət xidmətləri yalnız "ASAN xidmət" mərkəzlərində həyata keçirilsin.

6. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin saxlanılması üçün hər il üçün dövlət büdcəsindən ayrılan vəsaitin (dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) istisna olmaqla) yuxarı həddi Nazirliyin tabeliyindəki qurumların ("AzInTelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti istisna olmaqla) dövlət büdcəsinə ödədiyi dividendin cəmi məbləğinin yuxarı həddi ilə məhdudlaşır.

7. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası:

7.1. hüquq mühafizə və hərbi sahələrdə fəaliyyət göstərən dövlət orqanlarının və qurumlarının fəaliyyətinin daha səmərəli və düzgün təşkili, idarəçiliyinin təkmilləşdirilməsi, eyni və ya oxşar səlahiyyətlərin daha optimal həcmdə resurs sərf edilməklə həyata keçirilməsi məqsədilə həmin dövlət orqanlarının və qurumlarının sayının, saxlanma xərclərinin və işçilərinin say həddinin optimallaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.2. mərkəzi icra hakimiyyəti orqanlarının, habelə Azərbaycan Milli Elmlər Akademiyasının strukturuna daxil olan (tabeliyindəki) elm, elmi tədqiqat, araşdırma, ixtisasartırma və digər bu kimi sahələrlə məşğul qurumların (institut, mərkəz, təhsil müəssisəsi və s.) fəaliyyətində səmərəliliyi artırmaq və onların idarə edilməsini təkmilləşdirmək üçün təkliflər hazırlanması məqsədilə İşçi Qrup yaradılmasını və müvafiq təkliflərin Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsini altı ay müddətində təmin etsin;

8. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

8.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

8.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

8.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

8.4. bu fərmanın 5-ci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Vergilər Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Əmlak Məsələləri Dövlət Komitəsinin, Dövlət Gömrük Komitəsinin, Dövlət Miqrasiya Xidmətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Qida Təhlükəsizliyi Agentliyinin və Milli Arxiv İdarəsinin "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının 5-ci hissəsində nəzərdə tutulan dövlət xidmətlərini bilavasitə icra edən bölmələrinin ştat vahidlərinin ümumi say həddi daxilində həmin dövlət orqanlarının işçilərinin ümumi say həddinin azaldılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

8.5. Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyindəki Akkreditasiya və Nostrifikasiya İdarəsinin ləğv edilməsinin və onun funksiyalarının Nazirliyin Aparatı vasitəsilə həyata keçirilməsinin təmin edilməsi ilə bağlı bir ay müddətində tədbirlər görsün;

8.6. Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyindəki qurumlarla bağlı aşağıdakı tədbirlərin görülməsini təmin etsin və bu barədə bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

8.6.1. Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun, Azərbaycan Respublikası Təhsil İnstitutunun, İstedadlı Uşaqlarla İş Mərkəzinin və Respublika Elmi-Pedaqoji Kitabxanasının vahid qurumda birləşdirilməsi;

8.6.2. Respublika Bədən Tərbiyəsi Mərkəzinin və "Təhsil" Respublika İdman Mərkəzinin vahid qurumda birləşdirilməsi;

8.7. üç ay müddətində:

8.7.1. mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, dövlət adından yaradılan publik hüquqi şəxslərdə və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə xidməti nəqliyyat vasitələri ilə təmin edilməli vəzifələrin siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

8.7.2. bu fərmanın 8.7.1-ci yarımbəndinə əsasən müəyyən olunacaq siyahıdan kənarda qalan vəzifələrdə işləyən şəxslərə xidmət edən xidməti nəqliyyat vasitələrinin mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, dövlət adından yaradılan publik hüquqi şəxslərin və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin balanslarından çıxarılaraq özəlləşdirilməsi üçün Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə təqdim edilməsini təmin etsin və nəticəsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

8.8. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin və onun yanında Dövlət Xəzinədarlıq Agentliyinin əsasnamələrinin layihələrini, habelə işçilərinin say həddi barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

8.9. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

9. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Qida Təhlükəsizliyi Agentliyi, Milli Arxiv İdarəsi və Dövlət İmtahan Mərkəzi bu fərmana əsasən ləğv olunan dövlət orqanlarında işləyən dövlət qulluqçularına münasibətdə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 464 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanları ləğv edilərsə və ya ştatlar ixtisara düşərsə, vəzifə maaşına və ixtisasa uyğun işə düzəlməkdə və ya dövlət orqanlarında tutduğu vəzifəyə uyğun vəzifə tutmaqda dövlət qulluqçusunun "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 21.1.6-cı maddəsində nəzərdə tutulmuş üstünlüyünün həyata keçirilməsi Qaydası"na uyğun olaraq tədbirlər görsünlər.

10. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti bu fərmana əsasən ləğv olunan dövlət qurumlarında (struktur bölmələrində) işləyən işçilərin tabeliklərində olan digər qurumlarda və ya struktur bölmələrində müvafiq vakant vəzifələrə təyin edilməsi ilə bağlı tədbirlər görsünlər və nəticəsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

11. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi:

11.1. mərkəzi icra hakimiyyəti orqanlarının informasiya sistemlərinin inventarizasiyasını və ekspertizasını həyata keçirsin, bu sahədə idarəetmənin təkmilləşdirilməsi və xərclərin optimallaşdırılması, o cümlədən mərkəzi icra hakimiyyəti orqanlarının elektron informasiya sistemlərinin fəaliyyətinin mərkəzləşdirilmiş qaydada Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin DATA mərkəzi vasitəsilə həyata keçirilməsinə dair təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

11.2. "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 dekabr tarixli 431 nömrəli Fərmanında onun üçün nəzərdə tutulmuş, habelə növbəti illərin dövlət büdcəsində nəzərdə tutulacaq vəsait həddində dividendin tabeliyindəki qurumlar tərəfindən dövlət büdcəsinə ödənilməsini təmin etsin.

12. Mərkəzi icra hakimiyyəti orqanları bu fərmanın 11.1-ci bəndindən irəli gələn vəzifələrin icrası ilə bağlı Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə müvafiq şərait yaradılmasını və kömək göstərilməsini təmin etsinlər.

13. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 yanvar 2019-cu il*

# Azərbaycan ilə İran arasında bütün sahələrdə yaxşı əlaqələr mövcuddur



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov yanvarın 17-də İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Məhəmməd Baqerinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan ilə İran arasında bütün sahələrdə yaxşı əlaqələrin olduğunu bildirən Baş nazir hər iki ölkə rəhbərlərinin birgə səyləri nəticəsində bu münasibətlərin daha da inkişaf etdiyini vurğulayıb. Qeyd edib ki, əlaqələrimizin genişləndirilməsi, o cümlədən mühüm layihələrin həyata keçirilməsi istiqamətində prezidentlərimiz tərəfindən atılan addımlar ölkələrimizin və xalqlarımızın maraqlarına xidmət edir.

Novruz Məmmədov qarşılıqlı səfərlərin əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyətli olduğunu qeyd edərək, Məhəmməd Baqerinin ölkəmizə bu səfərinin müdafiə sahəsində əməkdaşlığın daha da inkişafına töhfə verəcəyinə əminliyini bildirib.

Məhəmməd Baqeri Azərbaycana səfərindən və keçirdiyi görüşlərdən məmnunluğunu ifadə edib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı İranın mövqeyini xatırladan Baş Qərargah rəisi bildirib ki, Ermənistan Azərbaycanın tarixi torpaqlarını işğal edib və ölkəsi münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə həllinin tərəfdarıdır.

Baş nazir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəmizin ədalətli mövqeyinə verdiyi dəstəyə görə İran tərəfinə minnətdarlığını ifadə edib.

Məhəmməd Baqeri hər iki ölkənin xalqları arasında böyük tarixə malik əlaqələrin olduğunu bildirib. O, Xəzərin hüquqi statusuna dair Konvensiyanın imzalanmasının ölkələrimiz arasında yeni əməkdaşlıq imkanlarının yaranması baxımından əhəmiyyətini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Azərbaycan və İran hərbi əməkdaşlığı genişləndirir



Yanvarın 17-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan İran İslam Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Məhəmməd Baqerinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə iki gün ərzində işçi qruplarda aparılan danışıqların nəticələri müzakirə edilib və hərbi əməkdaşlığın digər istiqamətlərində münasibətlərin genişləndirilməsi ilə bağlı bir daha fikir mübadiləsi aparılıb.

Tərəflər icra edilən tədbirləri yüksək qiymətləndirərək bu cür qarşılıqlı səfərlərin keçirilməsinin vacibliyini vurğulayıblar.

# Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib

Yanvarın 17-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin yaz sessiyasında ilk iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Məclis Sədrinin birinci müavini, komitənin sədri Ziyafət Əsgərov gündəlikdəki məsələlər barədə məlumat verib. Bildirilib ki, gündəliyə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunda, Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi"ndə, "Azərbaycan Respublikasının "Sərhəddə fərqlənməyə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmət keçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanunlarda və Seçki Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihələri daxildir.

Ziyafət Əsgərov deyib ki, dəyişikliklər və əlavələr uyğunlaşma xarakterlidir. Belə ki, 2016-cı il sentyabrın 26-da keçirilən referendumla Konstitusiyamıza xeyli dəyişikliklər və əlavələr edildi. Onlardan biri də Konstitusiyanın 9-cu maddəsində edilən dəyişiklik idi. Həmin maddəyə müvafiq olaraq 2017-ci ilin dekabrında "Silahlı Qüvvələr haqqında" Qanun qəbul edildi, eyni zamanda, "Sərhəd Qoşunları haqqında" Qanunun əsasında yeni "Sərhəd mühafizə orqanları haqqında" Qanun qəbul olundu. Hazırda göstərilən dəyişikliklər hər iki qanuna uyğunlaşma xarakteri daşıyır.

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə görə, sənədin 6.4-cü maddəsindən sonra "Bu qanunun 6.4.1-ci maddəsində nəzərdə tutulmuş sənəd üzrə məlumatların elektron informasiya sistemindən əldə edilməsi mümkün olduğu hallarda həmin sənəd vətəndaşlardan tələb olunmur" məzmunlu qeyd əlavə ediləcək.

Deputatlar qanun layihələrini Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

# Bəzi qanunlarda dəyişikliklər ediləcək

Yanvarın 17-də Milli Məclisin Mədəniyyət komitəsinin 2019-cu ilin yaz sessiyasında ilk iclası keçirildi. Ötən ilin payız sessiyası ərzində görülən işlərdən danışan komitə sədri Rafael Hüseynov bildirdi ki, hesabat dövründə komitənin 7 iclası keçirilib, 22 məsələ müzakirə edilib.

Komitəyə daxil olan təklif, ərizə və şikayətlərdən 97-si müvafiq orqanlara göndərilib. Komitə üzvləri hesabatı qənaətbəxş hesab etdilər.

Sonra gündəlikdəki digər məsələlərə baxıldı. 2019-cu ilin yaz sessiyası üçün komitənin gündəliyinə bəzi məsələlərin daxil edildiyini deyən Rafael Hüseynov əvvəlcə "Nəşriyyat işi" haqqında qanuna toxundu. Bildirildi ki, bu qanunda çox ciddi və əsaslı dəyişikliklər olunmalıdır.

Komitə sədri əlavə etdi ki, ölkə Prezidentinin bu yaxınlarda verdiyi sərəncama uyğun olaraq, "Kitabxana işi haqqında" qanun layihəsində müəyyən dəyişikliklərin edilməsinə ehtiyac var. Qeyd edildi ki, ölkənin kitabxana həyatı tamamilə yenidən qurulmalıdır. Bundan başqa, "Kinemotoqrafiya haqqında" qanunun da işlək olması üçün orada müəyyən güzəştlər, imtiyazlar nəzərdə tutulmalıdır.

Diqqətə çatdırıldı ki, gələcəkdə "Tütün məmulatlarından istifadənin məhdudlaşdırılması haqqında" qanunda teatrda, kinoda, televiziya efirində bu məsələnin məhdudlaşdırılmasının hüdudları ilə bağlı dəqiq parametrlər müəyyənləşdiriləcək.

İclasda həmçinin "Milli Arxiv Fondu haqqında" qanunda dəyişiklik edilməsi barədə layihə müzakirə olundu. Eyni zamanda, "Türk Mədəniyyəti və İrsi Fondunun maliyyə qaydaları haqqında", "Azərbaycan Respublikası hökuməti ilə Türk Mədəniyyəti və İrsi Fondu arasında yerləşmə ölkəsi haqqında" sazişlərin təsdiq edilməsi barədə qanun layihələrinə baxıldı.

Daha sonra Azərbaycan Respublikasının "Sərhəddə fərqlənməyə görə" medalının Əsasnaməsinin təsvirinin təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və qarovul xidmətləri Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmət keçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə, "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanunlarda və Seçki Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihələri müzakirəyə çıxarıldı. Bildirildi ki, qanun layihələri texniki xarakterlidir və uyğunlaşdırma məqsədi daşıyır.

Komitə üzvləri müzakirə edilən dəyişikliklərlə bağlı fikir və təkliflərini səsləndirdilər. Müzakirə edilən bütün sənədlərin Milli Məclisin plenar iclasına tövsiyə olunması qərara alındı.

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***

# Güclənən Azərbaycan və tənəzzüldən çıxa bilməyən Ermənistan

## Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin yaratdığı yeni reallıq Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın maraqları çərçivəsində həllini tezləşdirə bilər

*Əvvəli 1-ci səh.*

Xüsusilə qeyd edilməlidir ki, dövlət başçıları arasında mövcud olan şəxsi dostluq münasibətləri iki ölkə arasında bütün istiqamətlər üzrə əlaqələrin inkişafına olduqca mühüm təsir göstərir.

İrana gəldikdə, bu ölkə ilə respublikamız arasında olan əlaqələr ildən-ilə genişlənir. İki ölkənin rəhbərləri arasındakı isti münasibətlər qarşılıqlı əməkdaşlığın inkişafına pozitiv təsir göstərir. Son illərdə Azərbaycan və İran prezidentlərinin qarşılıqlı səfərləri əlaqələrin daha da güclənməsinə böyük töhfələr verdi. Bir daha qeyd edək ki, Azərbaycan İrana qarşı təcrid siyasətinə qoşulmadı. Əksinə, İrana qarşı sanksiyaların olduğu vaxtlarda bu ölkə ilə bir çox sahələrdə əməkdaşlıq əlaqələri gücləndi. Bakı ən çətin dövrlərdə Tehrana dəstəyini əsirgəmədi.

Təsadüfi deyil ki, yanvarın 16-da İranın Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Məhəmməd Baqeri bildirib: "İran Qarabağ torpaqlarını Azərbaycan torpaqları hesab edir və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Sərhədlərin zor gücü ilə dəyişdirilməsi qəbuledilməzdir, İran bu məsələdə hər zaman Azərbaycanın yanındadır".

Bu, İranın yüksək vəzifəli nümayəndəsinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bu günə kimi verdiyi ən mühüm bəyanat hesab oluna bilər. Təbii ki, Azərbaycan tərəfi dostluq münasibətlərinin ruhuna uyğun olan bu kimi siyasi mövqenin ortaya qoyulmasını yüksək qiymətləndirir.

Azərbaycan-Türkiyə münasibətlərini isə xüsusi qeyd etməyə ehtiyac yoxdur. Bu iki türk dövləti arasında əlaqələrin dünyada analoquna rast gəlmək mümkün deyil. Bu gün bütün türk dövlətləri arasında sıx əlaqələr var. Amma Azərbaycan-Türkiyə münasibətləri xüsusi özəlliyi ilə diqqəti daha çox cəlb edir. Bir soydan qaynaqlanan etnik ortaqlıqla, dil və mədəniyyət kimi mənəvi dəyərlərlə bir-birinə bağlı olan Azərbaycan və Türkiyə dövlətləri yalnız mehriban qonşuluq münasibətlərini deyil, ölkələrimizin daha da yaxınlaşmasını şərtləndirən mənəvi amilləri də rəhbər tutaraq tarixən mövcud olmuş əlaqələrin daha yüksək səviyyəyə çatdırılması üçün qarşılıqlı olaraq bütün zəruri addımları daim atmışlar. Türk dünyasının öncülləri olan bu iki ölkə arasındakı münasibətlərdə demək olar ki, boşluq qalmamışdır. Bu mənada Azərbaycan-Türkiyə əlaqələrindən söz açdıqda diqqəti cəlb edən əsas məsələ yalnız əməkdaşlığın genişləndirilməsi və ya dərinləşdirilməsi deyil, bu iki türk dövləti arasındakı dostluq və qardaşlıq münasibətlərinin özünün ən yüksək zirvəsinə çatmasına nail olmaqdır.

Azərbaycan digər qonşu dövlət olan Gürcüstanla strateji tərəfdaşlıq əlaqələri qurmuş, həyata keçirilən transmilli layihələr bu ölkənin inkişafında, təhlükəsizliyinin təmin edilməsində olduqca mühüm faktora çevrilmişdir.

### Küncə sıxılmış Ermənistan

Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan region ölkələri ilə əlaqələrini inkişaf etdirməklə, onları strateji tərəfdaşlıq səviyyəsinə yüksəltməklə bölgədə təhlükəsizliyin bərqərar olmasına, inkişafa mühüm töhfə vermiş və bu zəmində formalaşan yeni reallığın müəllifinə çevrilmişdir.

Digər tərəfdən Azərbaycan işğalçı Ermənistana qarşı təcrid siyasətini uğurla davam etdirmiş, bu ölkənin siyasi və iqtisadi sisteminin, 20 ildən artıqdır ki, hakimiyyəti zəbt etmiş xunta rejiminin çökməsində mühüm rol oynamışdır. Hazırda Ermənistanda bütün sahələrdə olduğu kimi, xarici siyasətdə də ciddi geriləmə müşahidə olunur. Hakimiyyət dəyişikliyi ilə əlaqədar bu ölkənin xarici siyasətində müşahidə olunan ciddi fəsadlar, o cümlədən də onun Qərb üçün İran və Rusiyaya qarşı platformaya çevrilməsi təhlükəsi rəsmi Moskvanı və Tehranı öz ənənəvi siyasətini bir daha nəzərdən keçirməyə məcbur edir. Son aylarda Ermənistanda Rusiyaya qarşı çıxışlar getdikcə daha da artıb, rusofobiya meyilləri xeyli güclənib. Bunun nəticəsində Rusiyanın siyasi dairələrində Ermənistana qarşı antipatiya formalaşıb. Rusiyada Ermənistanın etibarlı müttəfiq olmasına inananların sayı getdikcə sürətlə azalmaqdadır. Bu arada İranın da Ermənistanla əlaqələrinə korrektələr etdiyi görünməkdədir.

Bu ölkənin Ermənistanla bəzi iqtisadi layihələrdən faktiki olaraq imtina etməsi buna misal ola bilər.

Ermənistandan fərqli olaraq bu gün Azərbaycanın region ölkələri ilə strateji tərəfdaşlığı yüksələn xətlə inkişaf edir, onun beynəlxalq nüfuzu artır. Təbii ki, bütün bunlar Azərbaycanın yeganə problemi olan ərazi bütövlüyünün təmin olunmasında olduqca mühüm əhəmiyyət kəsb edir. Bu mənada diqqəti çəkən xüsusi məqam odur ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı reallaşdırılan hücum diplomatiyası bölgədə yeni reallığın yaranmasına səbəb olub. Güclü, bütün ölkələrlə bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri qurmuş və bu əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmiş Azərbaycan və öz ənənəvi portnyorlarını itirən, küncə sıxılmış, sosial və iqtisadi kataklizmlər yaşayan, çıxılmaz vəziyyətə düşmüş Ermənistan. Regionun yeni reallığı budur.

Beləliklə, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin yaratdığı yeni reallıq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın milli maraqları çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə tam zəmin hazırlamışdır. Bu siyasətin nəticəsində Azərbaycanın öz ərazi bütövlüyünü təmin edəcəyi gün uzaqda deyil.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# İnkişaf, sabitlik və davamlı islahatlar ölkəsi

*Əvvəli 1-ci səh.*

Azərbaycanda törədilən bəzi hadisələrin qarşısının alınması da hər dəfə ölkəmizdəki xalq-iqtidar birliyinin sarsılmazlığının sübutu olub. Ötən il Gəncədə baş verən hadisə zamanı xalq-iqtidar birliyinin təntənəsi bir daha yaşandı. Gəncə hadisələri ölkəmizin sabitliyinə, inkişafına qarşı yönələn məkrli planın tərkib hissəsi idi. Bu planı hazırlayanların hədəfində Azərbaycanın dövlətçiliyi və müstəqilliyi dayanırdı. Lakin bir daha təsdiq olundu ki, xalq-iqtidar birliyinin qarşısında bütün çirkin planlar iflasa məhkumdur. Antiazərbaycançı dairələr bir daha gördülər ki Azərbaycan xalqı öz Prezidentinin ətrafında sıx birləşib.

Ötən ilin aprel ayında keçirilən prezident seçkilərində də hər kəs bu reallığın - xalq-iqtidar birliyinin şahidi oldu. *“Bizim siyasətimiz Azərbaycan xalqının maraqlarını tam əks etdirir, ona tam uyğundur. Məhz buna görə Azərbaycan xalqı bizim siyasətimizi dəstəkləyir. Bu dəstək keçən il prezident seçkilərində bir daha özünü göstərdi. Azərbaycan xalqı mənə bir daha çox böyük etimad göstərmişdir. Bildiyiniz kimi, seçkilər ərəfəsində keçirilmiş rəy sorğuları, seçkilər günü keçirilmiş exit-pollar rəsmi nəticələrlə tam üst-üstə düşüb. Bu, bir daha onu göstərir ki, seçkilərin nəticələrində Azərbaycan xalqının iradəsi tam öz əksini tapıb. Bu, görülən işlərə verilən yüksək qiymətdir. Görülən işlər isə göz qabağındadır”* - deyə Prezident İlham Əliyev Nazirlər Kabinetinin iclasında bu barədə deyib.

Bugünün reallıqları ondan ibarətdir ki, Azərbaycan yerləşdiyi bölgənin ən sabit və ən dinamik inkişaf edən ölkəsidir. Başqa bir həqiqət odur ki, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, xalq-iqtidar birliyi Azərbaycanda sabitliyi şərtləndirən əsas amildir. Bəli, ölkə əhalisi mövcud siyasi kursu dəstəkləyir və bu da vətəndaş həmrəyliyinin təmin olunmasında əsas şərtlərdən biridir. Bütün bunlar isə zəncirvari şəkildə bir-birini tamamlayaraq bütövlükdə Azərbaycanın güclənməsinə, inkişafına və müstəqilliyimizin möhkəmlənməsinə, siyasi-ictimai sabitliyə layiqli töhfələr verir.

## Məqsəd idarəetmədə keyfiyyəti, çevikliyi və səmərəliliyi artırmaqdır

Nazirlər Kabinetinin iclasında diqqəti çəkən başqa bir məsələ Prezident İlham Əliyevin struktur islahatlarının gözlənilməsi barədə fikirləri oldu. “Yeni idarəetmə strukturu olmalıdır - daha çevik, daha yığcam, daha məqsədyönlü” - deyən dövlət başçısı idarəetmə və kadr islahatının aparılmasının, həmçinin rəhbər şəxslərin maksimum səmərə ilə işləməli olmalarının vacibliyini bildirdi.

Ölkədə struktur islahatlarının aparılması, idarəetmədə səmərəliliyin və operativliyin təmin olunması daim diqqət mərkəzində olub. Çünki Azərbaycan sürətlə inkişaf edən dövlətdir. Dinamik inkişafı və cəmiyyət həyatının bütün sahələrinin yeniləşməsi isə dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsini, daha çevik idarətetmə metodlarının tətbiqini zəruri edir. Təbii ki, resurslardan səmərəli istifadə olunması, büdcə vəsaitlərinə qənaət də bu zaman nəzərə alınır.

İndiyədək sürətli inkişaf dövrünün tələblərinə uyğun olaraq ölkədə bu istiqamətdə mühüm addımlar atılıb. Nazirlər Kabinetinin iclasından sonra Prezident İlham Əliyev struktur islahatarı barədə müvafiq fərmanlar imzalayıb. Fərmanlara əsasən, dövlət qurumlarının bəziləri ləğv edilib, bəzilərinin əsasında yeni qurumlar yaradılıb. Məqsəd isə idarəetmədə çevikliyi və səmərəliliyi artırmaq, cəmiyyətdə formalaşan yeni çağırışlara və iqtisadiyyatda baş verən struktur dəyişikliklərinə adekvat uyğunlaşmanı təmin etməkdir. Bir sözlə, islahatların əsas qayəsini dövlət aparatının optimallaşması, daha məqsədyönlü fəaliyyət göstərən idarəetmə strukturunun formalaşdırılmasıdır.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Dövlət-din münasibətləri daha da təkmilləşdirilir

Yanvarın 16-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) 2018-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib.



Komitədən AZƏRTAC-a bildiriblər ki, iclasda kollegiya üzvləri ilə yanaşı, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov, həmçinin mərkəzi aparatın və bölgə şöbələrinin müdirləri iştirak ediblər.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasa toxunub. 2018-ci ilin, ümumilikdə, ölkəmiz üçün uğurlu olduğunu, bir çox sahələrdə nailiyyətlərin əldə edildiyini bildirən DQİDK sədri ötən il ərzində ölkədə dini durumla bağlı sabitliyi təmin etmək və qoruyub-saxlamaq, həmçinin tolerant mühitin daha da sağlamlaşdırılması, mənfi təzahürlərin aradan qaldırılması üçün bir sıra əhəmiyyətli addımların atıldığını diqqətə çatdırıb.

Mübariz Qurbanlı bildirib ki, bu ilin dövlət başçısı tərəfindən Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığını, milli-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alaraq “Nəsimi ili” elan olunması Azərbaycanın zəngin tarixi-mədəni irsinin təbliğinə çox böyük töhfədir.

Dövlət komitəsinin sədri daha sonra 2018-ci il ərzində respublikada dini durumu dərindən öyrənmək, dini prosesləri izləmək, əsas tendensiyaları müəyyənləşdirmək, radikal dini cərəyanların fəaliyyətinin qarşısını almaq, ölkədəki dini vəziyyətlə bağlı informasiya fondunu genişləndirmək, dini qurumlarla əməkdaşlığın qurulmasını təmin etmək məqsədilə həyata keçirilən müvafiq tədbirlər barədə ətraflı məlumat verib.

Dövlət komitəsinin sədri 2018-ci ildə dövlət qeydiyyatına alınan dini icmaların ümumi sayının 909-a çatdığını, onlardan 877-nin islam, 21-i xristian, 8-i yəhudi, 2-si bəhai və 1-i krişna şüuru olmaqla 32-sinin isə qeyri-islam təmayüllü olduğunu vurğulayıb. Hesabat dövründə dini qurumların dövlət qeydiyyatına alınması ilə bağlı 143 müraciətin (138-i islam, 5-i qeyri-islam təmayüllü) daxil olduğu, 22 dini qurumun sənədlərinin qanunvericiliyə uyğun tərtib edilmədiyinə görə geri qaytarıldığı, ümumilikdə, 98 dini icmanın (96-sı islam, 2-si qeyri-islam təmayüllü) dövlət qeydiyyatına alındığı diqqətə çatdırılıb.

O, hesabat dövrü ərzində keçirilən bəzi maarifləndirici tədbirlərin formatına uyğun olaraq, dövlət komitəsinin sifarişi ilə hazırlanmış “Fitnə”, “Şəhadət”, “Üfüqdəki gələcək” və “Vəhdət qanımızdadır” adlı sənədli filmlərin ölkənin bütün regionlarında, o cümlədən ölkəmizdəki ali təhsil müəssisələrində, orta məktəblərdə, gənclər evlərində və s. müvafiq məkanlarda nümayiş etdirildiyini vurğulayıb.

Daha sonra dövlət komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadənin məruzəsi dinlənilib.

Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev çıxışında bildirib ki, hesabat dövründə təmsil etdiyi agentlik və onun tabeliyindəki mənəvi dəyərlər fondu dövlət-din münasibətlərinin tənzimlənməsi və bundan irəli gələn vəzifələrin təkmilləşdirilməsi, radikal dini cərəyanlara qarşı müvafiq tədbirlərin görülməsi, cəmiyyətdə milli-mənəvi dəyərlərin təbliği istiqamətində fəaliyyətini davam etdirib.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov isə institutun 2018-ci ildə təhsil standartlarının müəyyənləşdirilməsi, strukturunun təşkili, tələbə qəbulu, ilk tədris ilinə hazırlıq, eləcə də maarifləndirmə istiqamətində apardığı ardıcıl və məqsədyönlü işlər barədə məlumat verib.

Daha sonra Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov fond tərəfindən mənəvi dəyərlərin qorunması, inkişafı və təbliğini həyata keçirmək məqsədilə reallaşdırılan tədbirlər barədə danışıb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov çıxış edərək bildirib ki, Azərbaycanda din sahəsində stabil mühit mövcuddur, ölkəmiz konfessiyalar və məzhəblərarası münasibətlərin tənzimlənməsi baxımından nümunəvidir. O qeyd edib ki, dövlət başçısı İlham Əliyev tərəfindən dini icmalara göstərilən qayğı, onların fəaliyyəti üçün daim geniş imkanların yaradılması dövlətin milli-mənəvi dəyərlərə olan yüksək münasibətinin bariz nümunəsidir.

E.Nəcəfov ölkədə dini durumla bağlı sabitliyin qorunub-saxlanılması və dini icmalar arasında mövcud tolerantlıq mühitinə kölgə salmağa çalışan mənfi təzahürlərin aradan qaldırılması istiqamətində dövlət komitəsi tərəfindən görülən işləri, xüsusilə respublikanı əhatə edən genişmiqyaslı maarifləndirmə tədbirlərini yüksək qiymətləndirib və bu tədbirlərin ölkədəki dövlət-din münasibətlərinin daha da təkmilləşməsinə öz töhfəsini verdiyini bildirib. O, ötən ildən başlayaraq təmsil etdiyi şöbənin respublikanın bütün bölgələrində etno-siyasi və dini durumla bağlı keçirdiyi zona müşavirələrinin dini radikalizmə qarşı mübarizə işinə öz müsbət təsirini göstərdiyini bildirib.

Sonda dövlət komitəsinin 2019-cu il üçün fəaliyyət planı, qarşıya qoyulan məqsədlər, görüləcək işlər, problem və perspektivlər geniş müzakirə edilib.

# Əsas məqsəd Azərbaycan vətəndaşının sosial rifahını təmin etməkdir

*Əvvəli 1-ci səh.*

Amma bu kateqoriyadan olan insanlara göstərilən qayğı təzə mənzillər verilməklə bitmir. Dövlət tərəfindən şəhid ailələrinin vərəsələrinə 11 min manat vəsaitin verilməsi prosesinə də başlanılıb. Bu günə qədər həmin siyahıda 10 minə yaxın vərəsə qeydə alınıb və yaxın zamanda onların hər birinə vəsaitin ödənilməsi təmin ediləcək. Şəffaflıq və sosial ədalətə söykənən bu addımın atılmasında məqsəd hər bir şəhid ailəsinin vərəsəsinin dövlətin humanist addımından bəhrələnməsini təmin etməkdir.

Vətənin müdafiəsində dayanan hərbçilərin də sosial vəziyyətinin yaxşılaşdırılması diqqət mərkəzindədir. Keçən il 400-ə yaxın hərbçinin mənzillə təmin edilməsi və bu prosesin cari ildə də davam etdiriləcəyinin nəzərdə tutulması dövlətin əsgərinin yanında daim olmasını təsdiqləyir.

Lakin bu da həqiqətdir ki, dövlətin ən çox vəsait xərclədiyi sosial təbəqələrdən biri də qaçqın və məcburi köçkünlərdir. İndiyədək 300 min qaçqın və məcbur köçkün ailəsinin evlə təmin olunması adi fakt deyil. Təkcə ötən il 5800 köçkün ailəsinə mənzil verilib. Cari ildə də bu proses davam edəcək. İlkin hesablamalara görə, bu il 5 min köçkün ailəsi üçün yeni mənzillər tikilib istifadəyə veriləcək. Lakin bu, son hədd deyil. Ola bilsin ki, ehtiyacı olan daha çox məcburi köçkün mənzillərlə təmin edilsin.

Azərbaycanda keçən il ölkə üzrə 140-dan çox məktəb tikilib. Cari ildə 100-dən çox məktəbin tikilməsi nəzərdə tutulur. Bununla yanaşı, qəzalı vəziyyətdə olan məktəblər də əsaslı şəkildə təmir edilir. Ötən il bir çox yerlərdə yeni xəstəxanalar açılıb. Cari ildə isə 10-a yaxın rayon mərkəzi xəstəxanasının açılışı gözlənilir.

Sosial-iqtisadi infrastruktur layihələrinin həyata keçirilməsi istiqamətində də çox iş görülüb. Belə ki, yola saldığımız 2018-ci ildə 2 min kilometr avtomobil yolu salınıb. Ümumiyyətlə, 2004-cü ildən indiyədək 15 min kilometr avtomobil yolu çəkilib. Təkcə keçən il 920 kəndin yol infrastrukturu yaxşılaşdırılaraq 2,2 milyon insanın gediş-gəlişi asanlaşdırılıb. Cari ildə də bu istiqamətdə görülən işlər davam edəcək. Belə ki, bu il ən azı, 1000 kilometr yeni yolun salınması nəzərdə tutulur. Bununla yanaşı, beynəlxalq əhəmiyyətli və magistral yolların tikintisi də unudulmur. 2018-ci ildə Astara-İran yolu çəkilib. Həmin yol əvvəlkindən 40 kilometr qısadır. Magistral yol yaşayış məntəqələrinin kənarı ilə çəkildiyindən həm tıxacların qarşısı alınır, həm də vətəndaşların təhlükəsizliyi təmin edilir. Plana görə cari ilin sonunadək Astaradan İran sərhədinə qədər yeni dördzolaqlı yol çəkiləcək. Bunun da sayəsində yük maşınları Astara şəhərinə girmədən İran sərhədinədək rahat hərəkət edə biləcək.

Əhalinin keyfiyyətli içməli su ilə təminatı sahəsində də tədbirlər həyata keçirilib. 38 şəhərin içməli su məsələsi tam şəkildə öz həllini tapıb. Hazırda 12 şəhərdə bu istiqamətdə işlər aparılır və yaxın gələcəkdə həmin şəhərlər də keyfiyyətli içməli su ilə təmin ediləcək.

İqtisadiyyatın inkişafı, xüsusilə qeyri-neft sektoru sahəsində qazanılan uğurlar əhalinin məşğulluq probleminin həllində xüsusi rol oynayır. Bunun nəticəsidir ki, keçən il 118 min daimi iş yeri açılıb. Təkcə xalçaçılığın inkişafı 5 minə yaxın insanın işlə təmin edilməsinə imkan yaradıb, özü də yüksək maaşla. Ötən il əhalinin gəlirlərinin 9,2 faiz artmasının bir səbəbi də məhz budur. Bu artımın 2,3 faizlik inflyasiya fonunda baş verməsi isə ölkədə sosial-iqtisadi siyasətin, Prezidentin dəfələrlə dediyi kimi, Azərbaycan vətəndaşının rifahına xidmət etdiyini göstərir.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

# *Məhəmməd BAQERİ:* “İran Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləyir”

Son illər Azərbaycan və İran prezidentlərinin siyasi iradəsi nəticəsində ölkələrimiz arasında iqtisadi, siyasi və digər sahələrdə mühüm irəliləyişlər əldə olunub. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra, eləcə də İran İslam Respublikası qurulandan bəri İrandan Azərbaycana ilk dəfə hərbi və müdafiə sahəsində yüksək səviyyəli nümayəndə heyətinin səfəri müvafiq sahələrdə iki ölkə arasında əməkdaşlığın genişləndirilməsinə xidmət edir.

AZƏRTAC xəbər verir ki, bu barədə Bakıya səfəri ilə əlaqədar fikirlərini bölüşən İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-leytenant Məhəmməd Baqeri mətbuat nümayəndələri üçün təşkil olunan brifinqdə deyib.

Məhəmməd Baqeri diqqətə çatdırıb ki, İran Azərbaycanı özü üçün qonşu, dost və qardaş ölkə hesab edir. Lakin biz münasibətlərimizin bu səviyyədə olması ilə kifayətlənə bilmərik. İki ölkə arasında müştərək layihələr, o cümlədən “Şimal-Cənub nəqliyyat dəhlizi”, Rəşt-Astara dəmiryolu xəttinin çəkilişi, eləcə də digər infrastruktur və yol-nəqliyyat layihələri icra olunmaqdadır. Bu layihələr icra olunduqdan sonra iki ölkə arasında iqtisadiyyat və ticarət sahələrində əlaqələr daha da genişlənəcək və inkişaf edəcək. İran Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləyib və Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə həll olunmasını arzulayır.

Məhəmməd Baqeri qeyd edib ki, İran, eləcə də Azərbaycanın işğal olunmuş ərazilərinin qaytarılması, məcburi köçkünlərin və qaçqınların problemlərinin həll olunması, onların doğma yurd-yuvalarına qayıtması məsələsinin həll olunmasını istəyir.

General-leytenant M.Baqeri deyib: “Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənovun dəvəti ilə ölkənizə etdiyim bu səfər çərçivəsində, o cümlədən aidiyyəti qurumların rəhbərləri ilə keçirilən səmərəli görüşlərdə ikitərəfli hərbi və müdafiə sahəsində əməkdaşlığın genişləndirilməsi barədə müzakirələr apardıq və müəyyən razılıqlar əldə olundu. Düşünürük ki, gələcəkdə bu sahədə əlaqələrimizi daha da inkişaf etdirə biləcəyik. İki ölkənin sərhədləri də sülh və dostluq sərhədləridir və ölkələrimizin sərhəd komandanları bu sahədə böyük işlər görürlər. Ümid edirik ki, bu sabitlik və sülh sərhədləri gələcəkdə də hər iki ölkə tərəfindən daha yaxşı qorunacaq və ölkələrimiz arasında insanların gediş-gəlişi, malların nəqli üçün daha yaxşı şərait yaradılacaq”.

Baş Qərargah rəisi bildirib ki, Xəzəryanı dövlətlər, eləcə də Azərbaycan ilə İran arasında Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın qəbul olunması böyük irəliləyişdir. Bu konvensiya imkan verəcək ki, gələcəkdə Xəzər dənizində əməkdaşlığı daha da genişləndirək və birgə hərbi təlimlər təşkil edə bilək.

Paris Sülh Konfransından 100 il ötür

# Cümhuriyyətin sülh elçiləri

Azadlığına qovuşdurduğu ölkəsinin beynəlxalq münasibətlərinin qurulması, istiqlalının qəbul edilməsi Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qarşısında duran ən vacib və təxirəsalınmaz vəzifələrdən biri idi. Paris Sülh Konfransında iştirak bu istiqamətdə mühüm addım olacaqdı. Odur ki, Azərbaycan parlamenti konfransa tam səlahiyyətli nümayəndə heyəti göndərmək haqqında qərar qəbul etdi. Parlamentin sədri Əlimərdan bəy Topçubaşov rəhbər təyin olundu. Nümayəndə heyətinə Məmməd Həsən Hacınski, Əhməd bəy Ağayev (Ağaoğlu), Əkbər Şeyxülislamov, Məhəmməd Məhərrəmov, Mir Yaqub Mehdiyev və Ceyhun bəy Hacıbəyli daxil idilər.



*Azərbaycan nümayəndə heyəti*

Azərbaycan nümayəndə heyəti əvvəlcə İstanbula getdi. Onlar həmin şəhərdə ikən - 1919-cu il yanvarın 18-də Paris Sülh Konfransı açıldı. Konfrans tarixi bir gündə işə başladı. Belə ki, 1871-ci ilin həmin günü alman imperatoru I Vilhelm Versalda “Güzgülü zalda” Fransa-Prussiya müharibəsindən qısa müddət sonra öz hakimiyyətini elan etmişdi. 1701-ci ilin 18 yanvarında isə Prussiya krallığı yaranmışdı.

Məğlub ölkələr və bolşevik Rusiyası Paris Sülh Konfransına dəvət edilmədi. “Böyük dördlük” - ABŞ prezidenti Vudro Vilson, Böyük Britaniyanın baş naziri Lloyd Corc, Fransanın baş naziri Jorj Klemanso və İtaliyanın baş naziri Vittorio Orlando konfransda aparıcı yer tuturdu.



*Böyük dördlük*

Paris Sülh Konfransının başlıca məqsədi Almaniya və onun müttəfiqləri ilə sülh müqaviləsi bağlamaq idi. Müqavilənin əsasını Vudro Vilsonun konqresə təqdim etdiyi 14 maddə təşkil edirdi. Həmin maddələrin məğzi dünyanın ədalətli şəkildə yenidən qurulması - gizli diplomatiyadan imtina, azad ticarət, silahlanmanın azaldılması, xalqlara öz müqəddəratını təyin etmək hüququnun verilməsi və digər prinsiplərdən ibarət idi.

## Azərbaycan nümayəndə heyəti Parisdə...

Üç ay İstanbulda gözləməli olan, müttəfiq dövlətlərin təmsilçiləri ilə yazışmalar aparan Azərbaycan nümayəndə heyəti, nəhayət, aprelin 22-də İtaliya gəmisi ilə Fransaya yollandı. Onlar Parisə mayın 7-də yetişdilər. Amma nümayəndə heyəti vəzifələrin icrasına artıq İstanbulda başlamış, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev və Ceyhun bəy Hacıbəyli tərəfindən hazırlanmış “Qafqaz Azərbaycanı Cümhuriyyətinin Paris Sülh Konfransına memorandumu” adlı sənəd üzərində yenidən işləyərək onu daha da təkmilləşdirmişdi. Məqsəd memorandumu Paris Sülh Konfransının keçirildiyi ingilis və fransız dillərində kitabça şəklində hazırlayıb konfrans iştirakçılarına paylamaq idi.

Onlar Parisdə bir neçə istiqamətdə fəaliyyət göstərir, Azərbaycan Xalq Cümhuriyyətinin müstəqil dövlət kimi beynəlxalq miqyasda tanıdılması yönündə çalışır, həm çar Rusiyasının süqutundan sonra yaranan Gürcüstan, Ukrayna və digər yeni, müstəqil dövlətlərin, həm də Qərb dövlətlərinin təmsilçiləri ilə danışıqlar aparırdılar.

Azərbaycan hökumətinin on dörd bölmədən ibarət “Qafqaz Azərbaycanı Cümhuriyyətinin Paris Sülh Konfransına memorandumu” kitabça kimi çap edilməzdən qabaq ingilis və fransız dillərində əlyazma şəklində konfransın katibliyinə təqdim edildi.

1919-cu il mayın 28-də, İstiqlal günü Azərbaycan nümayəndə heyətini Vudro Vilson qəbul etdi. Ona təqdim olunan memorandumda Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixi, bir illik fəaliyyəti, istiqlal yolunda verdiyi qurbanlar barədə məlumat yer alır, Azərbaycanın istiqlalının tanınması, Vilson prinsiplərinin Azərbaycana aid edilməsi, Azərbaycanın Millətlər liqasına qəbulu, ABŞ-ın Azərbaycana hərbi ləvazimat sahəsində yardım göstərməsi xahiş edilirdi. Vilson Azərbaycanın və Rusiya əsarətindən qurtulub öz milli dövlətlərini qurmuş digər xalqların gələcəyi ilə bağlı öhdəlik götürməyərək Sülh Konfransının dünyanı kiçik hissələrə parçalamaq istəmədiyini, Azərbaycan məsələsinin rus məsələsindən əvvəl həll edilə bilməyəcəyini söyləsə də, bu görüş uğura doğru atılan addım oldu.

## Gerçəkləşən arzular...

Əlimərdan bəy Topçubaşov Parisdən Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədrinə göndərdiyi məktublarda nümayəndə heyətinin fəaliyyətindən bəhs edirdi. O, eyni zamanda, əməl dostlarına - Cümhuriyyət qurucularına Sülh Konfransının təcrübəsi, Paris mühiti barədə gərəkli məlumatlar verirdi.

Əlimərdan bəy və onun rəhbərlik etdiyi Azərbaycan nümayəndələri özlərini proseslərə dərindən bələd olan, savadlı, hazırlıqlı siyasətçilər kimi göstərir, yeni qurulmuş dövlətlərini Avropa miqyasında layiqincə təmsil edirdilər. Onlar öz ölkələrinin siyasi və iqtisadi maraqlarından çıxış edirdilər. Nümayəndələrimizin səyi ilə Paris Sülh Konfransına hazırlıq mərhələsində ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, İran və digər ölkələrlə qarşılıqlı münasibətlərin qurulması və inkişafı sahəsində bir sıra işlər həyata keçirildi.

Nümayəndə heyətinin məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycanın tarixi, zəngin təbii sərvətləri, rus istilası, Qafqazda qonşularla münasibət, erməni-azərbaycanlı münaqişəsinin səbəbləri, azərbaycanlılara qarşı erməni işgəncələri, 1918-ci ilin dəhşətli mart soyqırımı və başqa məsələlər barəsində Avropa ölkələrində məlumatlar yayıldı.

Azərbaycan nümayəndə heyəti yalnız öz ölkəsinin deyil, bütün Qafqazın müstəqilliyi və əməkdaşlığı yolunda mübarizə aparırdı. Onlar Ümumqafqaz maraqlarını əsas götürərək Gürcüstanın və Dağlı Respublikasının təmsilçiləri ilə əlbir çalışırdılar. Ermənistan nümayəndələri isə bu birliyə qoşulmur, fitnəkarlıqla Azərbaycanın və Osmanlı dövlətinin əleyhinə iş aparırdılar.

Ölkəmizin müstəqilliyinin tanınması ilə bağlı Müttəfiq Dövlətlərin nümayəndələrinə müraciətlər edən Azərbaycan nümayəndə heyətinin Parisdəki səkkiz aylıq gərgin fəaliyyəti bəhrəsini verdi. 1920-ci il yanvarın 11-də Lord Kerzonun təklifi ilə Paris Konfransının Ali Şurasında Azərbaycanın və Gürcüstanın istiqlalını de-fakto tanımaq haqqında yekdilliklə qərar qəbul olundu. Üç gün sonra bu tarixi xəbəri alan Azərbaycan bayram etdi.

Azərbaycan nümayəndə heyətinin məsləhətçisi Miryaqub Mirmehdiyev o tarixi günü belə təsvir edirdi: “Müsyö Kambon bəyan etdi ki, Azərbaycan və Gürcüstan respublikaları rəsmi olaraq beynəlxalq hüquq normalarına uyğun şəkildə müstəqil dövlətlər kimi tanınmışlar. Bu andan başlayaraq hər iki ölkə rəsmi şəkildə Ali Şura ilə əlaqəyə girə bilər, öz ehtiyaclarını, qeydiyyata alınmalarını, konfransın iclaslarında qanuni haqlarını, bərabərhüquqlu üzv olmalarını tələb edə bilərlər. Bundan başqa, Kambon bildirdi ki, bu dövlətlərin hökumətlərinin tanınması aktı, eyni zamanda, onların Rusiyadan ayrılmalarının tanınması ilə müşayiət olunmalıdır. Buradan çıxış edərək demək olar ki, Azərbaycan və Gürcüstan respublikaları bu gündən etibarən suveren dövlətlər hesab ediləcək”. Yanvarın 19-da Ali Şuranın hökumət başçılarının iştirakı ilə keçirilən iclasında bu qərar bir daha təsdiqləndi. İclasda çıxış edən Əlimərdan bəy Topçubaşov və Məhəmməd Məhərrəmov diqqətə çatdırdılar ki, Avropanın müəyyən hərbi və iqtisadi yardım göstərəcəyi təqdirdə Azərbaycan Xalq Cümhuriyyəti öz müstəqilliyini qoruyub saxlamağa qadirdir.

## Azərbaycanın müstəqilliyinə aparan yolun yolçuları

Yüz illik imperiya əsarətindən qurtulan Azərbaycan xalqı böyük çətinliklərlə müstəqilliyinə qovuşmuşdu. Ancaq bu dəfə də bolşevizm bəlası yaxındaydı. Cümhuriyyət qurucuları qarşılaşdıqları problemləri dünya dövlətlərinin, beynəlxalq ictimaiyyətin diqqətinə çatdırırdılar. Əlimərdan bəy Topçubaşov Parisdən yazırdı: “Getdiyimiz hər yerdə hamıya artıq il yarımdan çox dövlət kimi faktiki mövcud olduğumuzu bildirir, öz parlamenti, hökuməti, inzibati sistemi, məhkəməsi, məktəbləri, ordusu olan Azərbaycanın müstəqil yaşadığını göstəririk. Bu Azərbaycan bolşeviklərlə amansız mübarizəyə tab gətirib. Deməli, azərbaycanlılar siyasi həyat qabiliyyətinə malikdirlər və özlərinin müstəqil dövlətini qura bilərlər. Gücümüz çatdığı qədər, hətta gücümüz çatmasa belə, bu vəziyyəti qoruyub saxlamaq, bu özünütəsdiqi mühafizə etmək lazımdır. Biz istərdik ki, hamı, bütün xalqımız indi müstəqil ictimai-siyasi həyata qabil olduğumuzu sübut etmək üçün imtahan verdiyimizi yaxşı başa düşsün. İnanırıq ki, buna gücümüz çatacaq. ...Qarşımızda yalnız bir yol var - bu da Azərbaycanın müstəqilliyinə aparan yoldur”. Həmin yolun ilk yolçuları, ilk bələdçiləri sırasında Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə Parisdə, Sülh Konfransında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizə aparan nümayəndə heyətinin üzvləri də vardı.

Bütün səylərə baxmayaraq, Azərbaycan xalqını öz dövlətində müstəqil yaşamağa qoymadılar. Bolşeviklər 1920-ci il aprelin 28-də Azərbaycanı işğal etdilər. Bir ildən artıq Parisdə Azərbaycanın müqəddəratı yolunda mübarizə aparan nümayəndə heyəti vətənə dönə bilmədi. Onlar son nəfəslərinədək Azərbaycandan kənarda Azərbaycan üçün yaşayıb, mücadilə etdilər.

***Zöhrə FƏRƏCOVA,***
***“Azərbaycan”***





# ASAN yolla rahat HƏYAT

## İlham Əliyevin yaratdığı yeni Azərbaycan brendi qısa müddətdə xalqın böyük etimad və rəğbətini qazanıb

**"ASAN xidmət" - şəffaf fəaliyyət, ciddi məsuliyyət**

- 2012-ci il dekabrın 29-da Bakıda ilk "ASAN xidmət" mərkəzi açılıb;
- Hazırda 15 mərkəz, 1 qatar və 10 səyyar avtobusla ölkənin 75 faizini əhatə edir;
- 26 milyon nəfərdən çox insan xidmətin fəaliyyətindən yararlanıb;
- Vətəndaşların məmnunluq əmsalı 99,6 faizdir;
- 320-yə yaxın xidmət göstərir;
- 17 mindən çox "ASAN" könüllüləri var;
- 22 min vətəndaş gün ərzində mərkəzlərə müraciət edir;
- Bu il Tovuz, Ağcabədi, Kürdəmir, Şamaxı, Balakəndə yeni mərkəzlər, Bakıda isə daha bir "ASAN Kommunal"açılacaq.









*Əvvəli 1-ci səh.*

Azərbaycanın ilk "ASAN Həyat" kompleksi Prezident İlham Əliyevin 2016-cı il sentyabrın 3-də Masallıya səfəri çərçivəsində açılıb. Kompleks xüsusi zövqlə tikilən dördmərtəbəli "ASAN xidmət" mərkəzi və 6 ictimai iaşə obyekti üçün nəzərdə tutulan binalardan ibarətdir. Burada Heydər Əliyev İncəsənət Məktəbi, kinoklub, bank, kafe, "ABAD" mərkəzi və "ASAN İntellektual" inkişaf mərkəzi də mövcuddur.

Kompleksin 4480 kvadratmetr ərazisində "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Elə tanışlığa da ilk olaraq mərkəzdən başlayırıq.

Onu da qeyd edək ki, hazırda bütün "ASAN xidmət" mərkəzlərində 11 dövlət orqanı - Ədliyyə, Daxili İşlər, Vergilər, Əmək və Əhalinin Sosial Müdafiəsi, İqtisadiyyat nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, Milli Arxiv İdarəsi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Qida Təhlükəsizliyi Agentliyi, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 320-yə yaxın müxtəlif xidmət göstərilir.

Elnur Niftəliyev deyir ki, Masallı regional "ASAN xidmət" mərkəzinə Masallı, Cəlilabad, Lənkəran, Astara, Lerik, Yardımlı, Biləsuvar, Salyan və Neftçala ərazisində qeydiyyatda olan vətəndaşlar müraciət etməklə lazımi sənədləri operativ və şəffaf qaydada əldə edə bilirlər.

Eyni zamanda səyyar xidmət tərəfindən Cəlilabad, Lənkəran, Lerik, Yardımlı və Astara rayonlarında yaşayan vətəndaşlara şəxsiyyət vəsiqəsinin verilməsi və dəyişdirilməsi, ümumvətəndaş pasportunun verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqəsinin dəyişdirilməsi, əmək pensiyalarının təyin edilməsi, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, notariat, daşınmaz əmlakla bağlı əməliyyatların qeydiyyatı və bir sıra funksional yardımçı xidmətlər göstərilir.

### Nə vaxt itkisi var, nə də get-gəl

Girişdə vətəndaşlar mühafizəçilər tərəfindən ciddi şəkildə yoxlanılır. Onların üzərində kəsici, deşici, yaxud təhlükəli hesab olunan hər hansı bir əşyanın olub-olmadığına əminlik yarandıqdan sonra binaya buraxılırlar. İçəri daxil olan vətəndaşlar məlumat mərkəzinə yaxınlaşıb müraciət edirlər.

Mərkəzin bu hissəsində kifayət qədər insan olsa da, hər kəsin işi öz axarı ilə gedirdi. İçəridə nə səs-küy var idi, nə də qarışıqlıq. Masallı şəhər sakini, 62 yaşlı Əlhüseyn Hüseynovun sözlərinə görə, "ASAN xidmət", sözün əsl mənasında, onların işini asanlaşdırıb. Çünki adi bir sənədi almaq üçün bir neçə idarəyə getməli olurdular: "Əvvəllər vəziyyət ürəkaçan deyildi. Sənədləri almaq üçün günlərlə vaxt itirirdik. İdarələrin hərəsi də şəhərin bir tərəfində yerləşirdi. İndi isə lazım olan xidmətlər bir mərkəzdə cəmləşib. Bu, hər birimiz üçün sevindiricidir. Anbarı qeydiyyata aldırmaq üçün mərkəzdəki qida bölməsinə müraciət etdim. Heç 20 dəqiqə çəkmədi, sənədim hazır oldu. Əla xidmətdir, vallah".

Şəhər sakini Əziz Babayev yeni ev tikdirib. Mənzilin elektrik enerjisinin təminatı ilə bağlı sənədləri toplayaraq "ASAN xidmət"ə müraciət edib: "Təzə evimizə işıq çəkilməsi ilə bağlı müraciət etdim. Cəmi 25 dəqiqəyə bütün sənədləşmə prosesi başa çatdı. Çox rahat və gözəl xidmətdir. İnsanlar daha get-gələ düşmürlər, bir gündə, bir saatın içində hər şeyi həll edirsən. Çox məmnun qaldım".







### Könüllülər və Elektron Şikayət Köşkü

Binanın birinci mərtəbəsində müxtəlif xidmətlər mövcuddur. Burada uşaq guşəsi, könüllülər üçün ayrılmış masalar, kafe və Elektron Şikayət Köşkü vətəndaşların xidmətindədir.

Müxtəlif sahələrlə bağlı xidmətə müraciət edənlərə könüllülər yardımçı olurlar. Əslində elə Azərbaycanda könüllülər hərəkatı "ASAN xidmət"dən başlanıb. "ASAN" könüllülərinin sayı 17 mindən çoxdur. Hazırda bütün mərkəzlərdə yüzlərlə könüllü fəaliyyət göstərir.

Könüllü olmaq, ümumiyyətlə, insanların xoş niyyətindən xəbər verir. Təmənnasız olaraq kiməsə kömək etmək üçün xidmətə müraciət edirlər. Bu mərkəzdə də gənclərin yaradıcılıq potensialının inkişaf etdirilməsi üçün şərait və imkanların yaradılması, onların bilik və bacarıqlarının artırılması məqsədilə könüllülük fəaliyyəti həyata keçirilir. Könüllülər müqavilə əsasında 2 ay müddətində fəaliyyət göstərirlər. Müqavilədə göstərilən öhdəliklərlə 2 ay müddətində çalışan könüllülərə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən rəsmi sertifikat və xasiyyətnamə verilir.

Burada könüllülər 2 növbədə (birinci növbə səhər saat 9:00-dan 14:00-a qədər, ikinci növbə isə 14:00-dan 19:00-a qədər) fəaliyyət göstərirlər.

18 yaşlı Aytac Bağırova iki ay müddətində könüllü kimi çalışıb. Müqavilə müddəti bitdiyi üçün "ASAN" Könüllüləri Gənclər Təşkilatına üzv olmaq üçün müraciət edib: "Müraciətim müsbət cavablandırıldıqdan sonra burada təşkilatın nümayəndəsi kimi fəaliyyət göstərməyə başladım. İndi könüllülərimizə öz köməyimi əsirgəmirəm. Layihələr hazırlayıb təlimlər keçirik. Könüllülərin hər hansı bir problemi olduqda araşdırıb rəhbərliyə məlumat verirəm".

Aytac deyir ki, könüllü olduğu zaman bir layihə də hazırlayıb - "Danışıq klubu". Burada könüllülərin işdən sonra, asudə vaxtlarda bir araya gəlib bir-birini yaxından tanımaları, yeni layihələr hazırlamaları üçün yaxşı imkanlar yaradılıb.

Hərbi xidmətdən yeni qayıdan Nurlan Qurbanzadə isə yanvar ayından burada könüllü kimi çalışmağa başlayıb. Deyir ki, qısa zaman olsa da, bu iş ona çox maraqlıdır: "Dekabr ayının 25-də müraciət etdim və ayın 30-da könüllü kimi çalışmağa başladım. Burada insanlara yardım, kömək etmək xoş ovqat yaradır. Bunun savabı insana bəsdir. İnsanlara əl tutmaq hər zaman yaxşı bir iş sayılıb".







**Azərbaycanın ilk "ASAN Həyat" kompleksi**

- 2016-cı il fevralın 3-də açılıb;
- Kompleksin ərazisində
  - "ASAN xidmət" mərkəzi;
  - 9 rayona xidmət edən 1 səyyar "ASAN" avtobusu;
  - Heydər Əliyev İncəsənət Məktəbi;
  - "ASAN İntellektual" inkişaf mərkəzi;
  - "ABAD" mərkəzi;
  - Kinoklub;
  - Park və kafe;
  - Bank fəaliyyət göstərir.

Diqqətimizi çəkən digər bir maraqlı xidmət Elektron Şikayət Köşkü olur. Bəlli olur ki, əgər xidmətin hansısa bölməsində vətəndaşın müraciətinə baxılmasa, yəni şikayəti olarsa, həmin köşkə daxil olur və şüşə kabin avtomatik olaraq bağlanır. Heç kim vətəndaşa mane ola bilmir. İçəri daxil olan vətəndaş düyməni basmaqla birbaşa "Çağrı" mərkəzinin əməkdaşı ilə görüntülü əlaqə yaradır və şikayətini bildirir.

### İlk biometrik vəsiqə və doğum şəhadətnaməsinin sevinci

Birinci mərtəbə ilə tanışlıqdan sonra eskalatorla üst mərtəbəyə qalxırıq. Mərkəzin daxilindəki maraqlı dizayn yuxarı qalxdıqca daha aydın hiss olunur.

Burada həyata keçirilən əsas xidmətlər 2, 3 və 4-cü mərtəbələrdə cəmləşib. Onlardan Daxili İşlər Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Miqrasiya Xidməti, Notarius, Dövlət Gömrük Komitəsi, əmlak məsələləri və digər təşkilatların xidmətlərini göstərmək olar.





15 yaşı yenicə tamam olmuş şəhər sakini Abuzər Məmmədov şəxsiyyət vəsiqəsi almaq üçün gəlib. Yeni biometrik şəxsiyyət vəsiqəsi alacağı üçün üzündə bir təbəssüm vardı. Amma alacağı vəsiqənin əvvəlkindən necə fərqləndiyindən xəbərsiz idi: "Bilirəm ki, şəkildən başqa vəsiqədə barmaq izi də olur. Başqa üstünlükləri barədə məlumatım yoxdur".

Müasir aparatın qarşısında əyləşən Abuzərə yeni vəsiqə ilə bağlı məlumat verildi. Bildirildi ki, biometrik şəxsiyyət vəsiqəsində fotoşəkil və başqa məlumatlarla yanaşı, vətəndaşın barmaq izi məlumatları olur. Bu da bəzi proseslərdə vətəndaşın işini asanlaşdırır. Həmçinin biometrik şəxsiyyət vəsiqəsi vasitəsilə əksər dövlət qurumlarının elektron xidmətlərindən rahat yararlanmaq olur. Yəni yeni vəsiqə insanlara çox yaxşı imkanlar verir.

Məlumat verildikdən sonra Abuzər baş barmağını aparatda göstərilən yerə toxundurdu və proses başa çatdı.

Digər mərtəbədə isə diqqətimizi çəkən gənc ailənin yaşadığı sevinc hisləri oldu. İlqar Kişiyev dekabr ayında dünyaya gəlmiş oğul övladına doğum şəhadətnaməsi almaq üçün müraciət edib: "Dekabrın 15-də övladımız dünyaya gəlib. Adını Tunar qoyduq və bu gün onun doğum haqqında şəhadətnaməsini almağa gəlmişik. İndi təqdim edəcəklər".

Bir qədər sonra xidmətin əməkdaşı Masallı şəhərinin yeni sakini Tunar Kişiyevin şəhadətnaməsini atasına təqdim etdi.

### Fiziki məhdudiyyətli İlahənin qüsursuz xidməti

Pilləkənlərlə mərtəbələri aşağı enərkən diqqətimizi çəkən bir məqam da təsirli oldu. Məlumat mərkəzində vətəndaşlara xidmət göstərən xanımlardan biri fiziki qüsurlu məhdudiyyətli insanlar üçün hazırlanan arabada əyləşib.

Birinci mərtəbəyə enib həmin xanımla söhbətləşirik. Bəlli olur ki, bu xanım 2016-cı ildən, yəni Masallı "ASAN Həyat" kompleksi açıldığı gündən burada çalışan İlahə İbrahimbəylidir. 3 ildir burada fəaliyyət göstərən İlahə xanım öz işindən çox razıdır: "Bəlkə də bura gələnlərin əksəriyyəti mənim fiziki qüsurlu olduğumu bilmir. Çalışırıq ki, hər zaman gülərüz və nəzakətli şəkildə vətəndaşlara xidmət edək. Şəxsən mən hər zaman dövlətin qayğısını hiss etmişəm. Yaşadığım bədbəxt hadisədən sonra özümə qapanaraq küskün, cəmiyyətdən məhrum bir insan kimi həyata ümidsiz baxırdım. Heç təsəvvürümə də gətirə bilməzdim ki, dövlət orqanında işə qəbul olunaram. Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya hər zaman minnətdaram. Çünki Mehriban xanıma etdiyim müraciətdən sonra məni xarici ölkəyə müalicəyə göndərdilər. İndi dövlətimizin diqqət və qayğısı nəticəsində daha ümidli, dünyaya yenidən göz açmış bir insan kimi həyatıma davam edirəm".

İlahə xanım deyir ki, Prezident İlham Əliyevin qayğısını əhalinin hər bir təbəqəsindən olanlar - uşaqlar, gənclər, yaşlılar və xüsusən də fiziki hərəkətləri məhdud insanlar daim hiss edirlər.

Eşitdiklərimiz bizi həm təsirləndirdi, həm də qürurlandırdı. Ona görə ki, bu gün Azərbaycan dövləti öz vətəndaşına sahib çıxaraq onun çalışması, işləməsi üçün real imkanlar yaradır. Masallı "ASAN xidmət" mərkəzində şahidi olduğumuz xoş mənzərə də bunu deməyə tam əsas verir.

### Heydər Əliyev İncəsənət Məktəbi, kinoklub

Bu xoş təəssüratlarla "ASAN xidmət" mərkəzindən ayrılıb kompleksin ərazisindəki digər obyektlərə baş çəkirik.

Əlavə edək ki, kompleksin yerləşdiyi ərazidə park salınıb, fəvvarə quraşdırılıb, əhalinin rahatlığı və istirahəti üçün hər cür şərait yaradılıb. Bundan əlavə, 80 avtomobil üçün avtodayanacaq və digər rayonlardan gələcək vətəndaşlar üçün avtobus dayanacağı var.

İlk olaraq Heydər Əliyev İncəsənət Məktəbi ilə tanış oluruq. Bu bina da xüsusi dizaynla inşa olunub. Burada müxtəlif sərgi, tədbir, təqdimat və təlimlər keçirilir. Məqsəd müasir Azərbaycan incəsənətini tanıtmaq və onun geniş ictimaiyyət arasında təbliği üçün şərait yaratmaqdır. Ulu öndərin həyat və siyasi fəaliyyətini əks etdirən kitablar, jurnallar, fotoların olduğu maraqlı guşə də diqqət çəkir.

Müasir üslubda tikilən kinoklub isə uşaq və yeniyetmələrin daha çox əyləndiyi məkandır. Burada kafe və iki kinozal var. Kafenin masaları da elektrondur. Belə ki, müştərilər çay, kofe içə-içə stoldakı düyməni basıb elektron lövhəni yandırırlar. Sensorlu lövhədə bu gün üçün hansı filmlərin nümayiş etdiriləcəyi və ümumiyyətlə filmlər haqqında məlumat əldə edirlər.

### "ABAD" və "ASAN İntellektual" inkişaf mərkəzi

"ABAD" (Ailə Biznesinə ASAN Dəstək) - ailə bizneslərinin formalaşdırılmasını, bu təsərrüfatlar vasitəsilə məhsulların istehsalını, xidmətlərin göstərilməsini və brendləşdirilməsini, istehsalçıya və tələbata uyğun keyfiyyətli məhsulların istehsal və istehlakının təşviq edilməsini həyata keçirən mərkəzdir. "ABAD" mərkəzinin əsas məqsədi regionların sosial-iqtisadi inkişafına dəstək vermək, ailə bizneslərində müasir texnologiyaların tətbiqini təmin etmək, ailə brendlərinin formalaşmasına dəstək olmaqdır.

Elnur Niftəliyev diqqətə çatdırdı ki, "ABAD" pilot layihə kimi Masallı "ASAN Həyat" kompleksinin açılışı zamanı təqdim olunub və 2016-cı il 23 sentyabr tarixində Prezident İlham Əliyev tərəfindən "ABAD" publik hüquqi şəxsin yaradılması ilə bağlı sərəncam imzalanıb.

Bu gün dəstək proqramından 332 ailə bəhrələnir. Layihə Masallı rayonunda 7 ailə təsərrüfatı ilə fəaliyyətə başlayıb. Hazırda Lənkəran iqtisadi rayonunu əhatə edən Masallı "ABAD" Regional Mərkəzi vasitəsilə bu rəqəm 24-ə çatdırılıb. 24 ABAD-çı ailəsindən 13-ü dekorativ-tətbiqi xalq sənətkarlığı sahəsində, 11-i isə qida məhsulları istehsalı sahəsində çalışır. Qida məhsulları istehsalı sahəsində fəaliyyət göstərən ailələr müasir istehsal avadanlıqlarına malik konteynerlərlə təmin olunublar.

"ASAN İntellektual" inkişaf mərkəzi isə cənub bölgəsində bütün növ intellektual oyunların inkişafına kömək etmək, həmçinin gənclərin asudə vaxtlarını səmərəli keçirmələrində, intellektual inkişaf, savad və dünyagörüşlərini artırmaqda onlara kömək etmək məqsədi daşıyır. Mərkəz gənclərin gələcəkdə karyera qurmaları üçün lazım olan bilik və bacarıqları aşılayır. Burada tez-tez məktəblərarası, rayonlararası intellektual yarışlar təşkil olunur.

Bütün gördüklərimiz, şahidi olduğumuz reallıqların hamısı bir məkanda - Masallı "ASAN Həyat" kompleksində cəmləşib. Həm "ASAN xidmət", həm də digər əyləncə və istirahət mərkəzləri vətəndaş rahatlığına xidmət edir. Kompleksə təşrif buyuran 9 rayonun vətəndaşları həm "ASAN xidmət" mərkəzinə hansısa sənədlə bağlı müraciət edir, həm də parkda istirahət edirlər. Gənclər isə asudə vaxtlarını intellektual inkişaf mərkəzində, kinoklubda keçirirlər.

### Xalqa xidmət nümunəsi

Əlbəttə ki, belə mərkəzlərin yaradılması Azərbaycanın gücünü, qüdrətini göstərir. Prezident İlham Əliyevin söylədiyi kimi, "ASAN xidmət" yenilikdir, şəffaflıqdır, mədəniyyətdir. Bu, Azərbaycanın ixtirasıdır: "Biz fəxr edirik ki, dünya miqyasında analoqu olmayan intellektual məhsul artıq Azərbaycanın müəllifliyi ilə dünyaya təqdim olunur. Artıq bəzi ölkələr bizim təcrübəmizi öyrənməyə çalışırlar, müxtəlif formatda əməkdaşlıq edirlər. Bu onu göstərir ki, doğrudan da, bizim təşəbbüsümüz çox böyük və geniş nəticə hasil edib və bunun çox gözəl ictimai rezonansı var. Ancaq güclü dövlət belə işləri görməyə qadirdir. Ancaq öz xalqına diqqət göstərən hökumət bu işləri görür".

### Bu il daha 5 "ASAN xidmət" mərkəzi istifadəyə veriləcək

Bu gün ölkəmizdə 5 (Masallı, Quba, Mingəçevir, İmişli və Şəkidə) "ASAN Həyat" kompleksi fəaliyyət göstərir. Bu mərkəzlərin hər biri memarlıq əsəridir. Müxtəlif dizaynlarda inşa olunan komplekslərdə vətəndaşlara ən yüksək səviyyədə xidmət göstərilir.

Elnur Niftəliyevin sözlərinə görə, hər gün "ASAN xidmət" mərkəzlərinə ümumilikdə təxminən 22 min vətəndaş müraciət edir. Bu günə qədər olan müraciətlərin sayı 26 milyondan çoxdur. Onun da 7 milyonu 2018-ci ilin payına düşür. Hazırda vətəndaşların məmnunluq əmsalı 99,6 faizdir.

Bu il daha 5 şəhər və rayonda - Tovuz, Ağcabədi, Kürdəmir, Şamaxı və Balakəndə "ASAN xidmət" mərkəzi istifadəyə veriləcək. Eyni zamanda paytaxtda növbəti "ASAN Kommunal"ın istifadəyə verilməsi nəzərdə tutulub. Əsas hədəflərdən biri isə "Elektron hökumət"in inkişafı ilə bağlı yeni modelin istifadəyə verilməsidir.

Bir sözlə, Prezident İlham Əliyevin şəxsi təşəbbüsü ilə reallığa çevrilən və vətəndaş məmnunluğuna xidmət edən belə mərkəzlərin sayının artması həm dövlətin iqtisadi qüdrətinin yüksəldiyini, həm də verilən vədlərin vaxtında yerinə yetirildiyini təsdiqləyən reallıqdır.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***



# QANLI YANVAR - 29 İL



# Hicran qətrəli qərənfil



*Səni kimdir üzən bica, qərənfil*
*Sənə mən aşiqi-şeyda, qərənfil*

Al dona bürünüb aləm... Qərənfil yağışı yağır, selə dönüb axır küçələr boyu...

Sınmış güllərdən süzülən qanlı göz yaşları yollara çilənib, cığır salır Şəhidlər xiyabanına sarı...

## 1990-cı ilə qədər...

1990-cı ilə qədər gəlinlərin əlinin bəzəyi idi bir dəstə qərənfil... Bu qərənfillər tükənməz sevginin rəmzi idi. Elə buna görədir ki, qərənfil gülünün mənaları içərisində gözəllik, sevgi, ümid başda gəlir...

O məşum gündə, yanvarın 20-də də qərənfil sübut etdi ki, bəli, məhz o, tükənməz sevginin rəmzidir. O, analara övlad, övladlara valideyn, bacıya qardaş, qardasa bacı acısını bir az da olsa, yüngülləşdirməyə kömək etdi. Bu gül insanlara qoşularaq şəhidlərin məzarında ağı dedi, ləçəklərini yoldu, amma qoymadı ki, anaların göz yaşları məzar daşlarını isladaraq, şəhidlərin ruhunu narahat etsin. Axı, heç kəs anasını gözü yaşlı görmək istəmir...

## Ləçəkləri qəm yükündən qıvrılıbdır...

- Daha qərənfil görmək istəmirəm... Bu güllər balamın yoxluğunu, acısını hər an xatırladır mənə... ovuna bilmirəm...

Sinəsindəki qərənfilləri, daha möhkəm bağrına basaraq hayqırırdı bir ağ saçlı ana...

Qərənfil isə incimirdi...

O bilirdi... Bilirdi ki, sadəcə, bir məzar gülü deyil...

Boğazlarda düyünlənən qəhər anında gözlərdə yığılan yaş damlalarının axmaqla axmaq arasındakı zaman diliminin adıdır qərənfil. Düzdür, bir qızılgül qədər ətirli, gözəgəlimli olmasa da, qərənfilin öz dünyası var. Qəm yükündən qıvrım-qıvrım bükülübdür ləçəkləri. Çünki hər çiçəyin saxlaya bilməyəcəyi hicran qətrələrini gizləyir ləçəklərinin arasında...

Başqa güllər nə qədər incə, zərifdirsə, qərənfil o qədər dözümlü, mətindir. Bir damla su illərlə yaşamağına bəs edər.

O ümidin özüdür...

Səbirlidir...

Belinə qara lent bağlanıb, bəzən bir şəhid tabutunun keçdiyi yollarda boynu sınıb, ayaqlanıb, tapdalanıb, amma yenə də inciməyib...

Fərqində olub ki, sevgi güldür və dünyada bundan gözəl heç nə ola bilməz.

Torpağa, vətənə, sevgiliyə olan sevgilərin mərkəzində taxt qurub özünə.

Bəzən qərənfilə acıyırlar ki, o, qəm, kədər güldür, ona baxanlarda qəm-qüssə oyadır...

## Üşüyən şəhid məzarlarının al-qırmızı yorğanı

Amma acımayın qərənfilə...

O, bir millətin çəkdiyi dərd yükünə ortaq, çiyinlərdə daşınan şəhid tabutlarına qanad, üşüyən məzarlarına al qırmızı yorğan olub. O, qüssədən danışa bilməyən analara dil, bağrı parçalanan atalara göz yaşı olub...

Daşıdığı mənanın yükünü çəkməyə minlərin, milyonların gücü yetməz...

*Sinələr güllə-güllə,*
*Qan axır, dönür gülə.*
*Qərənfillər ağlayır,*
*Düşmənə gülə-gülə...*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



# Mədəniyyət ocaqlarında 20 Yanvarla bağlı silsilə tədbirlər keçirilir

20 Yanvar Azərbaycanın müasir tarixinin hüznlü və eyni zamanda qürur doğuran səhifəsidir. O vaxtdan 29 il ötür. Hər il olduğu kimi, bu il də Bakıda, respublikanın şəhər və rayonlarında, idarə və təşkilatlarda, elm və təhsil ocaqlarında bununla bağlı silsilə tədbirlər keçirilir.

Yanvarın 17-də Xətai Sənət Mərkəzində Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə "Azadlıq aşiqləri" rəsm müsabiqəsinə yekun vurulmuş, Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzində "20 Yanvarı unutmadıq" mövzusunda sərgi açılmış, "dəyirmi masa" keçirilmişdir.

M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında "20 Yanvar ümumxalq hüzn və qürur günüdür" mövzusunda kitab sərgisi və filmin nümayişi olmuşdur. Bakı Xoreoqrafiya Akademiyasının Təhsil Kompleksində birinci dərs 20 Yanvar faciəsinə həsr edilmiş, ədəbi-bədii kompozisiya göstərilmiş, respublika Gözdən Əlillər Kitabxanasında anım tədbiri keçirilmişdir.

Hüznlü günlə əlaqədar ölkəmizin bölgələri də daxil olmaqla teatr, kino və konsert müəssisələrində, təhsil ocaqlarında, kitabxana və sərgi salonlarında tamaşalar, musiqi gecələri, sərgilər və s. tədbirlər təşkil olunub. Yanvarın 19-da Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında görkəmli bəstəkar, xalq artisti F.Əlizadənin Qanlı Yanvara həsr olunan "İntizar" operası, yanvarın 20-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında yazıçı-dramaturq H.Mirələmovun "Xəcalət" tamaşası, xalq yazıçısı, İ.Əfəndiyevin "Hökmdar və qızı" əsəri əsasında hazırlanan "Qarabağnamə" tamaşası göstəriləcəkdir.

Dövlət Yuğ Teatrının kollektivi G.Dumbadzenin "Məhşər günü" tamaşasını, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının kollektivi yazıçı-dramaturq T.Vəliyevanın "Mənim ağ göyərçinim" və D.Mustafayevin "Əlincə qalası" əsərlərini səhnəyə qoyacaqlar. M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında 20 Yanvar faciəsi qurbanlarının xatirəsinə həsr olunmuş tədbir keçiriləcək. Anım gecəsində xalq artisti Rauf Abdullayevin dirijorluğu ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında V.A.Motsartın "Rekviyem" əsəri səslənəcək.

Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində rəsm sərgisi və ədəbi-bədii kompozisiya təşkil ediləcək. F.Köçərli adına Respublika Uşaq Kitabxanasında və filiallarında 20 Yanvar faciəsinin ildönümü münasibətilə "Tarix unutmayır qəhrəmanları", "Həqiqət uğrunda ölümləriylə ölümü kamına çəkdi şəhidlər", "And yerimiz - Şəhidlər xiyabanı", "Azadlığa gedən yolun zirvəsi" və s. mövzularda anım tədbirləri keçiriləcək, sərgilər açılacaq və təqdimatlar olacaqdır.

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə şəhid olan vətən övladlarının ailə üzvləri ilə görüş keçiriləcək. Yanvarın 21-də Nizami Kino Mərkəzində rejissor Nizami Abbasın "Salnaməfilm" studiyasında çəkdiyi "Unutma" sənədli filminin təqdimatı olacaq.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə paytaxtın mədəniyyət müəssisələrində, regional mədəniyyət idarələri tərəfindən isə respublikamızın bölgələrində faciənin ildönümü ilə bağlı çoxsaylı tədbirlər davam edir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Mübarizlik simvolu




Hər heykəl bir tarixdir. Ancaq elə heykəltəraşlıq nümunələri var ki, tarixin yalnız bir üzünü, bir səhifəsini əks etdirmir. Həmin əsərlərə baxdıqca çox ağrı-acı, dərd, faciə xatırlanır. Bakı şəhərində 1990-cı il 20 Yanvar faciəsi qurbanlarının xatirəsinə ucaldılmış "20 Yanvar abidə kompleksi" də Azərbaycan xalqının başına gətirilən neçə-neçə dəhşətli hadisəni yada salır.

Çünki o gecə Azərbaycan xalqı bir günün, bir gecənin faciəsini yaşamadı. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə iki əsrdir bölünən, parçalanan, müstəmləkə zənciri ilə buxovlanan bir xalqın azadlıq harayını susdurmağa gəlmişdilər. Sovet hakimiyyəti yetmiş il sonra yenə qanlı əlini Azərbaycana uzatmışdı. O gecə sovet ordusunun hissələri azadlıq arzusunu boğmaq üçün Azərbaycan xalqına divan tuturdu.

## Azadlıq uğrunda qurban gedənlər...

Vətənin müstəqilliyini canından əziz bilənlər o gecə tərəddüd etmədən ölümlə üz-üzə dayandılar. İmperiya ordusunun qəddarlığından, dinc, silahsız insanları atəşə tutmalarından çəkinmədilər. Azərbaycan xalqı azadlıq uğrunda, haqq yolunda mübarizə əzminin yenilməzliyi ilə o gecə tarixə yeni bir salnamə yazdı. 1990-cı ilin o soyuq yanvar günlərində şəhidlərinə yas tutan xalq onların yandırdıqları müstəqillik işığını sönməyə qoymadı. Azərbaycanda baş verən hadisələr Sovet Sosialist Respublikaları İttifaqının sonunu yaxınlaşdırdı. Çox böyük çətinliklərlə üzləşsə də, Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi 20 Yanvar faciəsinin qurbanlarının xatirəsinə ən böyük ehtiram oldu. Tarixə Qanlı Yanvar adı ilə yazılan 20 Yanvar faciəsinə şairlər, yazıçılar, bəstəkarlar, rəssamlar əsərlər həsr etdilər. O günlərin qurbanları heykəltəraşlıq nümunələrimizdə də əbədiləşdi.

Bakının şimal qapısında - 1990-cı ildə Bakıya hücum edən sovet qoşununun şəhərə daxil olduğu istiqamətdə ucaldılan "20 Yanvar abidə kompleksi" 1990-cı il 20 Yanvar faciəsi qurbanlarının xatirəsinə həsr edilmiş ən dəyərli əsərlərdən biri oldu.

## 20 Yanvar şəhidlərinin əziz xatirəsinə...

Kompleksin tikintisinə 2009-cu ilin oktyabrında başlanıldı. Bu möhtəşəm abidə-kompleksinin memarı Ədalət Məmmədov, heykəltəraşları Azad Əliyev və Cavanşir Dadaşov layiqli bir əsər, dolğun kompozisiya yaratmaq üçün müxtəlif mənbələrdən məlumatlar əldə etdilər. Xalqın mübarizlik ruhunun, dönməzliyinin simvolu olan elementlərdən məharətlə istifadə olundu. Yaradıcılıq təxəyyülü ilə reallığın vəhdətindən uğurlu bir əsər meydana çıxdı.

"20 Yanvar dairəsi" adlanan yerdə bir vaxtlar XI sovet ordusunun şərəfinə qoyulmuş abidə var idi. 1990-cı ildə sovet ordusu Bakıda kütləvi qırğınlar törətdikdən sonra həmin abidə kompleksi götürüldü. Ərazinin yaxınlığında, Bakının Yasamal rayonunda, Həsən bəy Zərdabi və Müzəffər Həsənov küçələrinin kəsişməsində "20 Yanvar abidə kompleksi" ucaldıldı.

Memorial kompleksin ümumi sahəsi 1500 kvadratmetrdir. Kompleksin divarı Afrika və Ukraynadan gətirilmiş qranit plitə ilə üzləndi. Abidənin ətrafındakı meydana qranit plitə döşəndi. Abidənin arxa hissəsindəki park abadlaşdırıldı, kompleksin qarşısında müasir işıqlandırma sistemi quraşdırıldı. Xatirə kompleksinin mərkəzində hündürlüyü postamentlə birlikdə 8 metr olan əzəmətli abidə qoyuldu.

Abidənin üzərində 20 Yanvar faciəsi zamanı həlak olmuş 147 nəfərin adı və soyadı, eləcə də ümummilli lider Heydər Əliyevin qanlı Yanvar hadisələri ilə bağlı dediyi "1990-cı il yanvarın 20-si Azərbaycanın tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur" sözləri qızılı hərflərlə həkk olundu. Postament üzərində "20 Yanvar şəhidlərinin əziz xatirəsinə" sözləri yazıldı.

Azərbaycanın paytaxtında "20 Yanvar abidə-kompleksi"nin açılışı 20 yanvar 2010-cu ildə oldu. Açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev iştirak etdi.

## Qürur yerimiz...

1990-cı ilin yanvarında Azərbaycan xalqı öz azadlığını və dövlət müstəqilliyini bərpa etmək üçün meydanlara çıxmışdı. O gecənin şəhidləri yeni bir nəslin azadlıq dastanını yazdılar. İmperiya qüvvələri törətdikləri cinayətləri pərdələməyə, ört-basdır etməyə cəhd göstərsələr də, buna nail ola bilmədilər. Azərbaycan xalqı qan bahasına qazandığı azadlığını qürurla, əzmlə qoruyaraq nəsildən-nəslə ötürür.

İllər ötür... Şəhidlərimizə ümumxalq sevgisi yaşayır. Azərbaycanın azadlığı, suverenliyi yolunda canlarından keçən vətən övladlarının xatirəsi sonsuz ehtiramla yad edilir. "20 Yanvar abidə kompleksi" də vətənsevərlərin ziyarət yerinə çevrilib. Bu abidə yalnız 20 Yanvar faciəsinin ağrılarını, o günlərin dərdini, fəryadını anlatmır, həm də insan xarakterindəki mətinlik, vətən sevgisinin ölməzliyi qranit lövhədə bacarıqla əks etdirilib. "20 Yanvar abidə kompleksi"ndə bir xalqı göz yaşlarına boğan hüzn, kədər də, köksünü qabardan əzəmət, qürur da var.

***Zöhrə FƏRƏCOVA,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***



# Mədəniyyət



● Diplomat xanımlarımız

# Xatun sultan

**Tarix boyu müdrikliyi, uzaqgörənliyi, Vətənə, torpağa, ailəsinə sədaqəti dillərdə dastan olmuş Azərbaycan qadını... Eramızdan əvvəl VI əsrdə Əhəməni hökmdarı Kirə qan udduran Tomris, ağlı, zəkası ilə İsgəndərə qalib gələn Bərdə hökmdarı Nüşabə, Mömünə Xatun, Tutu Bikə, Bəyim Xatun və daha neçə-neçə qəhrəmanımız... Bu dəfə onlardan biri - adı Azərbaycan dövlətçilik tarixinə ilk xanım diplomat olaraq yazılmış Sara Xatunu xatırlayacağıq.**



Heyrətamiz zəkaya malik, olduqca tədbirli Sara Xatun dövləti idarə işlərinin bütün sahələrində oğluna yaxından kömək edirdi. Ağqoyunlu dövlətinin xarici ölkələrlə diplomatik əlaqələrində onun rolu misilsizdi. Uzun Həsən bütün xarici siyasət məsələlərində anası ilə məsləhətləşir, ən məsul diplomatik danışıqlar üçün onu göndərirdi. Sara xatun dövlətin xarici işlərinə nəzarət edir, dövlətlərarası yazışmalar onun nəzarətində hazırlanır, elçiləri qəbul edirdi.

## Bayandur elinin qızı

Osmanlı mənbələrinin məlumatına görə, əsl adı Gövhərşah Xatundur. Bəzi mənbələrdə isə ondan Sara, Sarə, Sa`ra və Saray adı ilə bəhs olunur.

O, Bayandur elindən Pir Əli bəyin qızı idi. Pir Əli bəy Ağqoyunlu dövlətinin banisi Qara Yuluq Osmanın qardaşı və Ağqoyunlu tayfalarının ittifaqını yaradan Qutluq bəyin nəvəsi idi.

Sara Xatun gənc yaşda əmisi Qara Yuluq Osmanın oğlu Cəlaləddin Əli bəylə evlənir. Araşdırmalara görə, Sara Xatunun Cəlaləddin Əli bəylə izdivacından yeddi oğlu və bir qızı dünyaya gəlir. Oğlanlarının adı Hüseyn, Cahanşah, İskəndər, İbrahim, Üveys, Cahangir, Uzun Həsən, qızının adı Xədicə Bəyimdi. Qızı Səfəvi şeyxi Cüneydlə ailə qurur. Xədicə Bəyimin adı Şeyx Heydərin anası, Şah İsmayılın nənəsi kimi tarixə düşür.

Sara Xatunun anadan olduğu tarix məlum deyil. 1407-ci ildə ilk övladı Hüseyn dünyaya gələndə Sara Xatunun 16-17 yaşında olduğunu qeyd edən araşdırmaçılar onun 1490, yaxud 1491-ci ildə doğulduğunu ehtimal edirlər.

Cəlaləddin Əli bəy 1435-ci ildə Ağqoyunlu hökmdarı elan edildikdən sonra Sara Xatun siyasi fəaliyyətə başlayır.

Sara Xatunun həyat yoldaşının hakimiyyəti qısa sürdü. Cəlaləddin Əli bəy 1437-ci ildə qardaşı Həmzə Bəy tərəfindən hakimiyyətdən kənarlaşdırıldı. Sara Xatunun da adı mənbələrdə ilk dəfə Cəlaləddin Əli bəydən sonra Ağqoyunlular arasında baş verən ixtilaflar səbəbi ilə çəkilir. Ağqoyunlular arasında yaranan siyasi münaqişələrə, ərinin hakimiyyətinin qəsb edilməsinə şahid olan Sara Xatun oğlu Cahangirin tərəfində dayanır. 1444-cü ildə Cəlaləddin Əli bəyin vəfatından və Həmzə bəy hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra Ağqoyunlu taxtı Cahangirin əlinə keçir. O, 1444-1453-cü illər arasında on ilə yaxın dövləti idarə edir. Sara Xatun Cahangirin uğurlarına yol açır, onun adından diplomatik işləri idarə edirdi.

Ancaq Cəlaləddin Əli bəyin vəfatından sonra övladlar arasında taxt uğrunda mübarizə elə şiddətlənir ki, Ağqoyunlu dövlətinin məhv olmaq təhlükəsi yaranır. Sara Xatun ağıllı siyasəti ilə bu təhlükəni aradan qaldırır.

## İlk diplomatik səfər

1450-ci ildə o, ilk diplomatik səfərini Misirə etir. Qahirədə Məmlük hökmdarı Zahir Seyfəddin Çağmaqla görüşən Sara Xatun böyük hörmətlə qarşılanır. O, məmlüklərin Mardin və Amidi Ağqoyunlu torpaqları kimi tanımasına nail olur.

Sara Xatun uzun illər davam edən Qaraqoyunlu-Ağqoyunlu müharibələrinin dayandırılmasına böyük səy göstərir, iki dövlət arasında aparılan danışıqları idarə edir. Bu məqsədlə Təbrizə gedən Sara Xatun Qaraqoyunlu hökmdarı Cahan şah tərəfindən "Ana" kimi qarşılanır. İki türk dövləti arasında aparılan sülh danışıqlarına qaraqoyunlular tərəfindən Xatun Can Bəyim, ağqoyunlular tərəfindən Sara Xatun başçılıq edirlər. Danışıqlar Amid sülh müqaviləsinin imzalanması ilə nəticələnir.

Qaraqoyunlularla sülh danışıqları aparılmasına qarşı çıxan Uzun Həsən hökmdar qardaşına üsyan edərək bu sülhü qəbul etmədiyini bildirir. Oğlanları arasında ixtilafa son qoymaq üçün böyük mübaizə aparan Sara Xatun Cahangirin taxtdan əl çəkməsi, Uzun Həsənin hökmdar elan edilməsinə nail olur və övladlarını barışdıra bilir.

Uzun Həsənin Ağqoyunlu tayfalarının başına keçməsində Sara Xatunun Misirlə yaratdığı diplomatik əlaqələrin təsiri böyük idi. Buna görə Sara Xatun Misir Məmlüklü dövləti ilə ikinci dəfə diplomatik əlaqə yaradır, hətta Qahirəyə gedib Məmlüklü sultanı Xoşqədəmlə görüşür.

Heyrətamiz zəkaya malik, olduqca tədbirli Sara Xatun dövləti idarə işlərinin bütün sahələrində oğluna yaxından kömək edirdi. Ağqoyunlu dövlətinin xarici ölkələrlə diplomatik əlaqələrində onun rolu misilsizdir. Uzun Həsən bütün xarici siyasət məsələlərində anası ilə məsləhətləşir, ən məsul diplomatik danışıqlara onu göndərirdi. Sara Xatun yalnız xarici ölkələrin diplomatları ilə deyil, Teymuri hökmdarı Əbu Səid, Osmanlı imperatoru II Mehmet kimi dövlət başçıları ilə də diplomatik danışıqlar aparır, Ağqoyunlu dövlətinin xarici siyasətini uğurla yönəldirdi. Sara Xatun dövlətin xarici işlərinə nəzarət edir, dövlətlərarası yazışmalar onun tapşırığı ilə hazırlanır, elçiləri qəbul edirdi.

Onun təhsili haqqında məlumat yoxdur. Ancaq diplomatik yazışmaları oxuyan, ətrafında alimlər dəstəsi yer alan Sara Xatunun elmə, irfana böyük əhəmiyyət verdiyi bəllidir.

1468-ci ildə Qaraqoyunlu dövləti süqut etdi. Paytaxt Təbriz ağqoyunluların əlinə keçdi. Bundan sonra Sara Xatun Şərq və Qərb ölkələrində "Ağqoyunlu dövlətinin qadın sultanı" kimi tanındı.

## Ən uzun diplomatik səfər

Sara Xatunun ən uzun diplomatik səfəri Osmanlı ölkəsinə oldu. Onun II Mehmetlə bağladığı 1461-ci il Yassıçəmən sülhü böyük əhəmiyyət daşıyırdı. Sara Xatun sultan II Mehmetin hərbi düşərgəsinə iki çox çətin vəzifəni yerinə yetirmək üçün getmişdi. Birincisi, Osmanlı sultanını ağqoyunlular üzərinə hücum etmək fikrindən daşındırmalı idi. Əks halda, II Mehmetin hücumu Ağqoyunlu dövlətinin varlığına son qoya bilərdi. Bu məqsədə çatdıqdan sonra Sara Xatun sultanı Trabzonu fəth etmək niyyətindən döndərməyə çalışmalı idi. Mənbələrdə Osmanlı sultanın hərbi düşərgəsində Sara Xatunun böyük hörmətlə qarşılandığı, ağqoyunlularla kəskinləşən münasibətləri yumşaltmaq istəyən II Mehmetin diplomatik danışıqlar zamanı ona "ana" deyə müraciət etdiyi bildirilir. Diplomatik məharətindən istifadə edən Sara Xatun II Mehmeti Ağqoyunlu dövlətinə qarşı müharibə etmək fikrindən daşındırdı. Osmanlı qoşunlarının Trabzona hücümu zamanı Ağqoyunlu dövlətinin bitərəf qalması şərtilə iki ölkə arasında sülh imzalandı. Ancaq Sara Xatun Sultanı Trabzonu Türkiyəyə qatmaq məqsədindən döndərə bilmədi. Trabzonu xilas etməyin mümkünsüzlüyünü görən Sara Xatun gəlini Dəspinə Xatunun Trabzonun taxtına varislik hüququnu irəli sürdü. Trabzon xəzinəsini II Mehmetlə bölüşdürdü. II Mehmet Sara Xatunu böyük rəğbətlə, çoxlu hədiyyələrlə yola saldı.

Ağqoyunlu dövrünün salnaməçisi Əbubəkr Tehraninin yazdığına görə, Sara Xatun Qaraqoyunlu Cahanşahla danışıqlar aparmaq üçün onun yanına gedir və Rüstəm Tərxanın düşərgəsində olur. Onun ordusuna ani nəzər salmaqla təsəvvür etdikləri qədər güclü olmadığını görür. Uzun Həsənə xəbər göndərir: "Dayanmayıb hücuma keç, qələbə sənin olacaq". Bu xəbərdən sonra Uzun Həsən Rüstəm Tərxanın düşərgəsinə qoşun çəkir və onu məğlubiyyətə uğradır.

## "Dövlətin həqiqi üzü"

Uzun Həsənin dövründə Azərbaycanın mövqeyi möhkəmləndi, paytaxtı Təbriz olan möhtəşəm bir dövlət quruldu. O, Azərbaycanın ənənəvi əlaqələrə malik olduğu Şərq ölkələri ilə yanaşı, Avropa dövlətləri ilə də geniş diplomatik münasibətlər yaratdı. Uzun Həsən dövründə Azərbaycan elçiləri Venesiya Respublikası, Papalıq, Neapol Krallığı, Albaniya, Macarıstan, Polşa, Almaniya, Burqundiya Hersoqluğu, Kipr, Rodos, Trabzon imperatorluğu, Böyük Moskva knyazlığı ilə, eləcə də bir çox qonşu ölkələrin hökmdarlarının saraylarında diplomatik danışıqlar aparırdılar. Həmin illərdə Azərbaycan Şərqlə Qərb üçün ümumi maraq doğuran beynəlxalq problemlərin həllində mühüm rol oynayırdı. Ağqoyunlu dövlətinin dünyanın 30-dan çox ölkəsində daimi səfirliyi fəaliyyət göstərirdi. Xarici ölkələrlə aparılan danışıqlarda Uzun Həsənin anası Sara Xatun misilsiz xidmətlər göstərirdi. Ağqoyunlular dövlətinin ən güclü hökmdarının - Uzun Həsənin uğurlarında anası Sara Xatunun böyük rolu var idi. Buna görə də dövrün tarixçiləri onu "dövlətin həqiqi üzü" adlandırırdılar.

Araşdırmaçılar Sara Xatunun 1465-ci ildə 74, yaxud 75 yaşında vəfat etdiyini ehtimal edirlər. O, yalnız Azərbaycanda deyil, bütün Şərqdə dövrünün yeganə istedadlı diplomat qadını kimi məşhur oldu, eyni zamanda, Avropa ölkələrində tanındı. Adı böyük rəğbətlə, heyranlıqla çəkildi. Sara Xatun oğullarının, eləcə də bayandurlar sülaləsinin başqa nümayəndələrinin taxt-tac uğrunda ara müharibələrini sakitləşdirməkdə, həmin dövrdə kiçik Ağqoyunlu dövlətinin qüvvətli rəqibləri qarşısında müstəqilliyinin qoruyub saxlanılmasında və güclənməsində xidmətləri ilə qadının böyük ictimai xadim, müdrik siyasətçi, bacarıqlı dövlət rəhbəri olduğunu tarix qarşısında təsdiq etdi.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Heykəltəraşın emalatxanasında

# İstedad almaz kimi cilalananda...

### Xalq rəssamı, heykəltəraş Fuad Salayevin rəngarəng və qeyri-adi yaradıcılıq nümunələri



**Fikrin, düşüncənin bədii ifadəsi sənətkardan yalnız peşəkarlıq tələb etmir, bu həm də fitri istedada söykənir. İncəsənətin elə bir sahəsi yoxdur ki, orada kamil sənətkarlığa aparan yol fitri istedaddan keçməsin. Ona görə də böyük sənətkarlar deyiblər ki, hətta bu yolda istedad da azdır, gərək onu almaz kimi cilalayasan...**



## Dünyanın tanıdığı heykəltəraş

Belə sənətkarlardan biri də xalq rəssamı, professor, heykəltəraş Fuad Salayevdir. Dünyanın tanıdığı bu sənətkarın əsərləri doğma Bakısında da heyranlıq yaradır...

Fuad Məmmədəmin oğlu Salayev 1943-cü ilin sentyabrında ziyalı, milli adət-ənənələrin hörmətlə qorunduğu bir bakılı ailəsində dünyaya göz açıb. O, 1964-cü ildə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini bitirdikdən sonra təhsilini V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda davam etdirib.

## Heydər Əliyevin üç abidəsinin müəllifi

1975-ci ildə Azərbaycan Rəssamlar İttifaqının üzvü seçilən Fuad Salayev ümummilli lider Heydər Əliyevin üç abidəsinin müəllifiddir. Bəstəkar Qara Qarayevin, akademik Yusif Məmmədəliyevin xatirə lövhələri, akademik Azad Mirzəcanzadənin tuncdan, AMEA-nın müxbir üzvü Aqil Əliyevin mərmərdən olan məzar daşları da Fuad Salayevin yaradıcılıq məhsullarındandır.

AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun heykəltəraşlıq kafedrasında 1982-ci ildən pedaqoji fəaliyyətə başlayan, əməkdar incəsənət xadimi, tanınmış heykəltəraş, xalq rəssamı, professor, Rusiya Rəssamlıq Akademiyasının fəxri akademiki, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının prorektoru Fuad Salayev Almaniya və Yuqoslaviyada, eləcə də ölkəmizdə müxtəlif vaxtlarda keçirilən heykəltəraşlıq üzrə beynəlxalq simpoziumların və sərgilərin içtirakçısı olub. Əsərləri ABŞ, Rusiya, Kanada, İngiltərə, Fransa, İtaliya, Almaniya, Avstriya, Türkiyə və Yaponiyada muzey, fond, qalereya və şəxsi kolleksiyalarda saxlanılır. Ustad sənətkar əsasən bürünc üzərində işləyir, həmçinin digər materiallardan da istifadə edir.

## Dəmir leyləklər, yaxud "Fəza kompozisiyası"

Cəlal Qaryağdı kimi görkəmli heykəltəraşın yetirməsi olan Fuad Salayev hələ 1962-ci ildə keçirilən "Məişətdə sənət" adlı respublika sərgisində "Leyləklər"i ilə iştirak edib. Moskvada təhsilini bitirdikdən sonra məhsuldar yaradıcılıq yolu keçən sənətkarın ən gözəl əsərlərindən biri də 1972-ci ildə hazırladığı M.Muxtarovun şəhərkənarı bağında görkəmli rus şairi S.Yeseninin xatirə lövhəsi olub.

Rəssamın "Simvol ilə maili qüllə" (bürünc), "Şaquli"(bürünc), "Fəza kompozisiyası" (bürünc) işləri sərgi ekspozisiyalarında öz tamaşaçılarını heyran qoyan əsərlərindəndir. O, 2013-cü ildə Azərbaycan Respublikasında heykəltəraşlıq sənətinin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilib.

Məşhur rəssam-heykəltəraş, professor Fuad Salayevin əl və düşüncəsinin məhsulu olan əsərləri "012 Baku Public Art" festivalı çərçivəsində Fəvvarələr meydanının yaxınlığında, H.Z.Tağıyev küçəsində sərgilənib. Metaldan hazırlanmış və əsasən şəbəkəli fiqurdan ibarət əsərlərində heykəltəraşlıq kompozisiyası özü-özlüyündə bir neçə oxunma səviyyəsini təklif edir. Dinamika və formal əlamətlərinə görə əsər yüksəkliklərə can atan təsiri bağışlayır ki, bu da Yer səthindən qopmağa çalışanların nəfəsi, havası, yüksəliş istiqaməti ilə əlaqəli ola bilər.

## Dəmir konstruksiyaların rəqsi

Qeyd etmək lazımdır ki, sözügedən işin ideyası müəllifin ağlına Bakıdan çox da uzaq olmayan Lökbatanda yerləşən palçıq vulkanlarını müşahidə edən zaman gəlib. Püskürən vulkanların özü torpağın canlı nəfəsini xatırladır. Lakin işin gedişatı zamanı heykəltəraşlıq kompozisiyası əlavə assosiativ məna kəsb etməyə başlayıb. Müəllif özü deyir ki, əsərin çevrəsi rəqsi xatırlada bilər. Dəmir konstruksiyaların rəqsi özü-özlüyündə paradoksdur. Axı, rəqs canlı varlığa xasdır, dəmir isə ağırdır, yöndəmsizdir, o, aşağı çəkir. Bundan əlavə, kompozisiyanın əhəmiyyətli xüsusiyyəti onun interaktivliyidir - iş elə yerinə yetirilib ki, tamaşaçılar onun daxilində mövcud olan kompozisiyanı seyr etməklə onu yalnız "xaricdən deyil, həm də daxildən "oxuya" bilməlidirlər. Əsərə baxış bucağından asılı olaraq, assosiasiya da dəyişir. Lakin bunlarla yanaşı, kompozisiyanın "optik" yüksələn vektoru əhəmiyyət kəsb edir - hansı tərəfdən yanaşmaqdan asılı olmayaraq, tamaşaçının nəzəri yuxarı yönələrək və heykəltəraşlıq əsərinin dinamik formaları sayəsində yüksələn nöqtəyə cəlb edilir...

Sənət əsəri o zaman sənətkara şöhrət gətirir ki, o, istedadını zəhməti ilə cilalamış olsun, - bunu da bədii yaradıcılığı ilə çoxsaylı tamaşaçılarının zövqünü oxşayan rəssam-heykəltəraş, bu sahədə peşəkarların müəllimi, professor Fuad Salayev söyləyir.

*Məhəmməd NƏRİMANOĞLU,*
*Ağaəli MƏMMƏDOV (foto),*
*"Azərbaycan"*

HEYDƏR ƏLİYEV FONDU

# İncəsənət xalqları tanıdan, insanları birləşdirən mühüm vasitədir

**Azərbaycanın zəngin mədəniyyəti ölkəmizdən çox-çox uzaqlarda uğurla təqdim və təbliğ olunur. Bu baxımdan, Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi qeyd olunmalıdır.**

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, mədəni irsimizin himayədarı Mehriban xanım Əliyevanın UNESCO-nun xoşməramlı səfiri adına layiq görülməsi ölkəmizin zəngin maddi və qeyri-maddi mədəni irs nümunələrinin dünyada tanıdılmasına yeni üfüqlər açdı. Azərbaycan muğam sənəti ilk olaraq UNESCO tərəfindən bəşəriyyətin mədəni irs xəzinəsinə daxil edildi.

2009-cu ildə Azərbaycanın aşıq sənəti və ölkəmizin yaxından iştirakı ilə beynəlxalq nominasiya kimi təqdim olunan Novruz bayramı, 2010-cu ildə isə xalça sənətimiz, 2012-ci ildə tar ifaçılığı, 2013-cü ildə Qarabağ atları üzərində çövkən milli oyunu, 2014-cü ildə kəlağayı sənəti, 2015-ci ildə Lahıc misgərlik sənəti, 2016-cı ildə ölkəmizin Türkiyə, İran, Qazaxıstan və Qırğızıstanla birgə təqdim etdiyi lavaş-nazik çörəyin hazırlanma və paylaşma mədəniyyəti, 2017-ci ildə milli mətbəximizin nümunəsi olan dolmanın hazırlanma və paylaşma ənənəsi, habelə kamança musiqi alətinin işlənilməsi və ifaçılıq sənəti UNESCO-nun müvafiq siyahısına salınıb. Həmçinin Qız qalası və Şirvanşahlar sarayı ilə birlikdə İçərişəhər, Qobustan qayaüstü rəsmləri UNESCO-nun Dünya İrs Siyahısında yer alıb. Bütün bunlar Azərbaycanın beynəlxalq müstəvidə artan nüfuzunun, ölkəmizə göstərilən yüksək etimadın göstəricisidir.

"Azərbaycan"

● Kino



# Filmlərimiz 50-dək ölkədə beynəlxalq festivallarda nümayiş edilib

**2018-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan kinosunun 120 illiyi geniş şəkildə qeyd olunmuşdur.**

Ölkə rəhbəri tərəfindən "Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsindən keçən müddət ərzində 46 tammetrajlı bədii, 50 qısametrajlı bədii, 200-dən çox sənədli, 20-dən çox cizgi filmi çəkilib. Kinoda gənclərə geniş meydan açılıb, 60-dan çox rejissor özünün ilk ekran əsərini çəkib. Son illərdə çəkilən filmlərimiz 50-dək ölkədə beynəlxalq festivallarda nümayiş edilib. Təkcə 2017-ci ildə 15 filmimiz 20-dək beynəlxalq festivalda mükafata layiq görülüb.

Son illərdə "Azərbaycanfilm" kinostudiyasında, həmçinin Bakı Media Mərkəzində milli tarixi yaddaşın bərpasına, Azərbaycanın ictimai-siyasi həyatına, görkəmli şəxsiyyətlərə həsr olunan qiymətli bədii və sənədli ekran əsərləri ərsəyə gətirilib. Bu qəbildən olan filmlərin ölkəmizlə yanaşı, xaricdə də təqdimatları keçirilib.

*"Azərbaycan"*

● Təbiətimiz




**Azərbaycan bir hissəsi meşə örtüyü və yaşıllıqlarla zəngin dağlıq ərazilərdir. Ölkəmizdə ən yüksək dağ Böyük Qafqaz silsiləsindəki 4466 metr hündürlüyünə malik Bazardüzü zirvəsidir.**

Kiçik Qafqaz dağ silsiləsində 3724 metrlə Gamışdağ, Naxçıvan Muxtar Respublikası ərazisində Dərələyəz və Zəngəzur dağlarında 3904 metrlə Qapıcıq, Talış silsiləsində isə 2493 metrlə Gömürgöy ən hündür zirvə hesab olunur. Dağların zirvəsi nə qədər hündür olursa, buzlaqlarda su ehtiyatı da bol olur. Asiyanın 64, Şimali Amerikanın 56, Cənubi Amerikanın 22, Avropanın 25, Avstraliyanın 17, Afrikanın 3 faizi dağlardan ibarətdir. Dünyanın ən yüksək dağı Himalaydır ki, onun da ən yüksək zirvəsi 8848 metr olan Everestdir. Dağlar adətən, zəncir şəklində uzanır ki, onlara da sıra dağları deyilir. Dünyanın ən uzun dağ silsiləsi Cənubi Amerikanın qərbindəki And dağlarıdır. Onun uzunluğu 9 min kilometrdir. Ümumilikdə dünyanın quru hissəsinin 24 faizi tamamilə dağlıqdır və insanların 10 faizi həmin ərazilərdə yaşayırlar.

Dünyada olan 11 iqlimin 9-u Azərbaycandadır, buna da səbəb elə dağlarımızdır. Həm təbiətdə, həm də insan həyatında çox ciddi rol oynayan bu dağlar həyatımızdır desək, yanılmarıq. Böyük Qafqaz sıra dağları, eləcə də Kiçik Qafqaz sıra dağları meşələri, təmiz və quru havası, bənzərsiz bulaqları ilə məşhurdur. Bu dağlarda adı və dadı dillər əzbəri olan bulaqlar insan sağlamlığı üçün müalicə baxımından çox əhəmiyyətlidir. Dağların özünəməxsus təbiəti, mülayim iqlimi və mineral bulaqları ona xüsusi yaşam tərzi bəxş edir. Azərbaycanın 11 faiz ərazisini meşə təşkil edir ki, onun da 90 faizi dağlardır. 264 min hektar meşə sahəmiz isə düşmən tapdağı altındadır.

Dağların Azərbaycan təbiətinin formalaşmasında, flora və faunasının, habelə heyvanat aləmi ilə zənginləşməsində rolu əvəzsizdir. Əgər Böyük Qafqaz sıra dağları olmasaydı, Azərbaycanda təbiət bu qədər zəngin olmazdı. Dünyada baş verən qlobal istiləşmənin və digər amillərin yaratdığı problemlərin həlli bilavasitə həm də dağların varlığı ilə tənzimlənir. Əgər düzənlikdə yaşayırıqsa, bu o demək deyil ki, dağların bizə aidiyyəti yoxdur. Diqqət etdikdə, görürük ki, Kür-Araz ovalığının indiki təbiəti onu əhatə edən Böyük Qafqaz, Kiçik Qafqaz, habelə Talış dağları ilə sıx bağlıdır. Bu ovalığa gələn çayların çoxu öz mənbəyini dağlardan götürür.

Dağlar yağmurlu havalarda, ilin soyuq aylarında suları yığır, sanki süzgəcindən keçirib ilin isti dövründə çaylar şəklində bizə verir və bunun nəticəsində düzənliklərdə, ovalıqlarda həyat yaranır. Qanıx-Əyriçaydan yeraltı sular Oğuz-Qəbələ-Bakı su kəməri ilə Bakıya gətirilir. Əslində, bu yeraltı suyu formalaşdıran da Böyük Qafqazın buzlaqlarıdır. Böyük Qafqazın şimal-şərq yamacından Bakıya çəkilən bu kəmər Samur-Dəvəçi ovalığında olan yeraltı su ehtiyatı ilə bağlıdır. Həmin su ehtiyatı Baş Qafqaz silsiləsində illərlə konservasiya olunmuş buzlaqlardan, yeraltı sular kimi su ehtiyatlarından qaynaqlanır.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

## B İ L D İ R İ Ş

### Tender nəticəsində bağlanmış satınalma müqaviləsi barədə məlumat

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Bakı Ali Neft Məktəbi tərəfindən 23 noyabr 2018-ci il tarixdə keçirilmiş 1 LOT üzrə "Elektron Kitabxana" sisteminin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə "NEYRON TEKNOLOCİS" MMC qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə ƏDV daxil 199892 (yüz doxsan doqquz min səkkiz yüz doxsan iki) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

Təkrar

## İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu avtonəqliyyat vasitəsinin satın alınması məqsədilə *açıq tender elan edir*

İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu avtonəqliyyat vasitəsinin satın alınması məqsədilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq açıq tender elan edir.

**Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:**

- *satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmalı;*
- *maliyyə durumu qənaətbaxş olmalı;*
- *texniki, maliyyə və işçi qüvvəsinə, idarəetmə səriştəsinə malik olmalı;*
- *vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəlikləri olmamalıdır.*

Tenderdə iştirak etmək istəyənlər 100 manat iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu aşağıdakı ünvandan ala bilərlər:

Bakı şəhəri, A.M.Şərifzadə küçəsi, 172

Əlaqələndirici şəxs: Ə.Abdullayev, tel: (012) 433-63-65 dax/n: (230)

**Bank rekvizitləri:**
Bankın adı: PAŞA Bank ASC
Kod: 505141
VÖEN: 1700767721
Müxbir hesab: AZ82NABZ01350100000000071944
S.W.I.F.T. PAHAAZ22

**Alan:**
İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu
VÖEN: 1305619841
Hesablaşma hesabı:
AZ03PAHA36015AZNHC0100089628

**İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) surətləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilmə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;*
- *tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü müddətində qüvvədə qalır);*
- *tender təklifi qiymətinin 2 faizi həcmində təklifin təminatı;*
- *xarici şirkətlər iştirak etdikdə onların Azərbaycanda nümayəndəliyinin olmasını təsdiq edən sənəd.*

İddiaçı tenderin əsas şərtlər toplusunda göstərilən bütün maddələrə dəqiq əməl etməlidir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 15 fevral 2019-cu il saat 17:00-dək, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 20 fevral 2019-cu il saat 17:00-a qədər İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fonduna (ünvan: Bakı şəhəri, A.M.Şərifzadə küçəsi, 172) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri 21 fevral 2019-cu il saat 12:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

**Tender təklifinin qüvvədə olma müddəti** - tender prosedurunun başlandığı gündən etibarən ən azı 30 (otuz) bank günü təşkil etməlidir.

**Tender təklifinin təminatı** - tender prosedurunun başlandığı gündən etibarən ən azı 60 bank günü (tender təklifinin qüvvədə olma müddətindən ən azı 30 bank günü) çox olmalıdır və təklifin ümumi qiymətinin 2 faizini təşkil etməlidir.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

*Tender komissiyası*

# Beynəlxalq aləm

## Yəməndə BMT sülhməramlıları yerləşdiriləcək



Böyük Britaniyanın Yəmənlə bağlı təqdim etdiyi qətnamə BMT Təhlükəsizlik Şurasında yekdilliklə qəbul olunub. Bu barədə "Rosbalt" agentliyi xəbər verir.

Sənəddə beynəlxalq təşkilatın sülhməramlı qüvvələrinin ölkədə yerləşdirilməsi qaydası müəyyənləşdirilir. Ümumilikdə Yəmənə 75 sülhməramlı göndəriləcək. Onlar Hodeydə limanında atəşkəs rejiminin monitorinqi ilə məşğul olacaqlar. Barışıq ötən ayın 18-dən bəri qüvvədədir. Lakin atəşkəsə faktiki olaraq riayət edilmir.

Yəməndə bir neçə ildir "Ənsar Allah" (hövsilər) hərəkatının qiyamçıları və Prezident Əbd Rəbbo Mənsur Hadiyə sadiq qoşunlar arasında müharibə davam edir. Dövlət başçısı və hökumətin üzvləri Səudiyyə Ərəbistanında yaşayırlar.

## Zimbabvedə etiraz aksiyaları gülləbaran edildi



Zimbabvedə benzin və dizel yanacağının qiymətlərinin iki dəfədən çox artmasına etiraz əlaməti olaraq keçirilmiş aksiyalar zamanı azı 68 nəfər güllə yarası almışdır. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Məlumata görə, zərərçəkənlərdən 17-si təcili olaraq əməliyyat edilmişdir. Ölkənin Həkimlər Birliyindən bildirmişlər ki, etirazlar başlayandan bəri özəl və dövlət xəstəxanalarında 172 nəfərə tibbi yardım göstərilmişdir. Yanvarın 12-də ölkə Prezidenti Emmerson Mnanqaqva benzin və dizel yanacağının qiymətlərini iki dəfədən çox artırmaqla vətəndaşlarda narazılıq yaratmışdır. İnformasiya Nazirliyinin verdiyi məlumata görə, etirazlar başlayandan bəri 200 nəfərdən çox nümayişçi saxlanmışdır. Ötən bazar ertəsi nümayişçilərlə asayiş keşikçiləri arasında toqquşmalar nəticəsində 3 nəfər, o cümlədən bir polis əməkdaşı həlak olmuşdur. Ölkədə sosial şəbəkələr işləmir, bir sıra müəssisə və məktəblər bağlanmışdır.

## Tereza Mey parlamentin etimadını qazandı

Tereza Mey parlamentdə etimad qazanmaqla Böyük Britaniyanın Baş naziri vəzifəsini qoruya bilmişdir. Bu barədə "Alman dalğası" radiostansiyası xəbər verir.

Məlum olduğu kimi, müxalifətçi Leyboristlər Partiyasının lideri Ceremi Korbin hökumətə etimadsızlıq göstərmək təşəbbüsü ilə çıxış etmişdi. O, Nazirlər Kabinetini Brexit barədə Avropa İttifaqı (Aİ) ilə danışıqlarda ölkə üçün sərfəli sövdələşməyə nail ola bilməməkdə ittiham etmişdir.

İcmalar Palatasında (parlamentin aşağı palatası) səsvermə zamanı 325 deputat hökuməti dəstəkləmişdir. 306 deputat isə Meyə qarşı çıxmışdır.

## Suriyada dörd amerikalı hərbçi həlak oldu



Suriyanın Mənbic şəhərində güclü partlayış baş vermiş, nəticədə 4 amerikalı hərbçi həlak olmuş, 3-ü yaralanmışdır. Bu barədə "Röyter" agentliyi xəbər verir.

"Sarsılmaz qətiyyət" əməliyyatının qərargahı amerikalı hərbi qulluqçuların ölümünü təsdiqləmiş, lakin ölənlərin sayını dəqiqləşdirməmişdir. "The Washington Post" qəzeti xəbər verir ki, partlayışın təşkilinə görə İŞİD terrorçu qruplaşması məsuliyyəti üzərinə götürmüşdür.

## ABŞ taliblərə təzyiq göstərməyə çağırır



ABŞ-ın Əfqanıstan üzrə xüsusi nümayəndəsi Zalmay Xəlilzad sülh danışıqlarının dərhal başlanması üçün "Taliban" hərəkatına təzyiq göstərməyə çağırmışdır. Bu barədə o, ABŞ-ın Kabildəki səfirliyində keçirdiyi mətbuat konfransında məlumat vermişdir.

Xəlilzadın dediyinə görə, "əgər "Taliban" danışıqlar aparmaq istəyirsə, biz buna gedəcəyik. Əgər onlar döyüşmək istəyirsə, biz döyüşəcəyik". Xəlilzad region ölkələrinin sülh danışıqları ideyasını dəstəklədiyini bildirmişdir. Xüsusi nümayəndə, həmçinin taliblərlə sülh danışıqlarında tezliklə irəliləyiş olacağına ümid etmişdir. "ABŞ Əfqanıstanla uzunmüddətli və hərtərəfli əməkdaşlıq istəyir. Bu, hərbi, diplomatik və iqtisadi sahələri əhatə edəcək", - deyə Xəlilzad qeyd etmişdir.

## DİN: Məhəmməd Əmin Rəsulzadənin barelyefini oğurlamaqda şübhəli bilinən şəxslər saxlanılıb

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi (DİN) Məhəmməd Əmin Rəsulzadənin Novxanı kəndindəki körpələr evinin binasından asılan barelyefinin oğurlanması ilə bağlı məlumat yayıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yanvarın 15-də Abşeron rayonu Novxanı kəndində yerləşən körpələr evindən rayon polis idarəsinə müraciət edilərək uşaq bağçasının inzibati binasının divarına asılmış M.Ə.Rəsulzadənin barelyefinin naməlum şəraitdə oğurlandığı bildirilib.

Polis əməkdaşları tərəfindən dərhal hadisə yerinə baxış keçirilib və zəruri araşdırmalar aparılıb. Oğurluq hadisəsini törədənlərin şəxsiyyəti həyata keçirilən əməliyyat-axtarış tədbiri nəticəsində qısa müddətdə müəyyənləşib. Cinayəti törətməkdə şübhəli bilinənlərdən iki nəfər saxlanılıb, digərlərinin tutulması istiqamətində tədbirlər davam etdirilir.

Araşdırma zamanı, həmçinin məlum olub ki, barelyefi oğurlayan şəxslər onu hissələrə ayıraraq paytaxtın Binəqədi rayonunda və Sumqayıt şəhərində yerləşən metal qəbulu məntəqələrinə satıblar. Barelyefin hissələri polis əməkdaşları tərəfindən metal qəbulu məntəqələrindən aşkarlanaraq maddi sübut kimi götürülüb.

Faktla bağlı Abşeron Rayon Polis İdarəsində araşdırmalar davam etdirilir.

Azercell

abunəçilərinin nəzərinə

20.02.2019-cu il tarixindən etibarən, Fakturasız (SimSim) xətt sistemində aid nömrələr üçün "Tələbə 1-liyi" tarif paketinə qoşulma dayandırılacaq. Həmin tarif paketindən istifadə edən nömrələr isə müvafiq şərtlərdən yararlanmaqda davam edə biləcək.

## Ermənistan silahlı qüvvələrinin bölmələri iriçaplı pulemyotlardan istifadə etməklə atəşkəs rejimini 29 dəfə pozub



Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 29 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Ayqeovit kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Aşağı Əskipara, Cəfərli, Bala Cəfərli kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Şıxlar, Qaraqaşlı, Novruzlu, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## Azərbaycan nümayəndələri Litvada ənənəvi qaçış günündə iştirak ediblər



Vilnüsdə Litvanın SSRİ-nin tərkibindən çıxmasının 28-ci ildönümünə həsr olunmuş ənənəvi qaçış günü keçirilib. Qaçışda Litva Xarici İşlər Nazirliyinin və xarici dövlətlərin bu ölkədə akkreditə olunmuş diplomatik nümayəndəliklərinin təmsilçiləri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycan, Estoniya, Yaponiya, ABŞ, Moldova və Gürcüstanın Litvadakı səfirliklərinin nümayəndələri də litvalı həmkarları ilə birlikdə qaçış xəttinə çıxıblar. Yarışın başlanmasından əvvəl isə Litvanın xarici işlər naziri Linas Linkyaviçyus diplomatlarla birgə Antakalnis məzarlığında ölkənin müstəqilliyi uğrunda həlak olanların məzarları üzərinə tər çiçəklər qoyublar.

Hər ilin yanvar ayında keçirilən "Həyat və ölüm yolu" adlanan qaçış günü ilk dəfə 1992-ci ildə təşkil olunub və 13 yanvar hadisələrinə həsr edilib. Doqquz kilometrlik tras 13 yanvar hadisələri qurbanlarının dəfn edildiyi Antakalnis məzarlığından başlayır və teleqüllənin yanında başa çatır. Qaçış Litva Həvəskar Qaçışçılar Assosiasiyası, Milli Müdafiə Nazirliyi və Litva Silahlı Qüvvələri tərəfindən təşkil olunub.

## Dağlıq və dağətəyi rayonlarda yollar buz bağlayacaq




Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, bəzi yerlərdə yağıntılı olacağı, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir. Güclü şimal-qərb küləyi əsəcək, günün ikinci yarısında tədricən mülayimləşəcək. Havanın temperaturu gecə 0-2°, gündüz 4-6° isti olacaq. Atmosfer təzyiqi normadan yuxarı - 762 millimetr civə sütunundan 767 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 85-95, gündüz 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində havanın yağıntılı olacağı, sulu qar, qar yağacağı, gündüz əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 4-7° isti, dağlarda gecə 5-10°, gündüz 0-4° şaxta olacağı bildirilir.

Əsasən dağlıq və dağətəyi rayonlarda yollar buz bağlayacaq.

Sinoptiklərin ölkə ərazisində gözlənilən xüsusi təhlükəli hidrometeoroloji hadisə haqqında verdikləri xəbərdarlıq yanvarın 18-i gündüzədək öz qüvvəsindədir.

Naxçıvan Muxtar Respublikasının bəzi yerlərində qar yağacağı, gündüz tədricən kəsiləcəyi gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi gecə və səhər arabir güclənəcək. Havanın temperaturunun gecə 1-6°, dağlıq ərazilərdə 8-10° şaxta, gündüz 0-5° isti olacağı ehtimalı var.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcərin, həmçinin Daşkəsən-Gədəbəy rayonlarının bəzi yerlərində qar yağacağı, gündüz havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, gecə və səhər bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 5-10° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi yerlərdə havanın yağıntılı olacağı gözlənilir. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, gecə və səhər bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 4-7° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində havanın yağıntılı olacağı, qar yağacağı, gündüz tədricən kəsiləcəyi gözlənilir. Ayrı-ayrı yerlərdə duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, gecə və səhər arabir sürətlənəcək. Havanın temperaturu gecə 0-5° şaxta, gündüz 0-4° isti, dağlarda gecə 9-14°, gündüz 0-5° şaxta olacaq.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərinin, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarının bəzi yerlərində yağış yağacağı, gündüz havanın əsasən yağmursuz keçəcəyi ehtimal edilir. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, gecə və səhər bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 4-7° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarının bəzi yerlərində yağış, dağlıq ərazilərdə qar yağacağı, gündüz havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Dağlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək, gecə və səhər arabir güclənəcək. Havanın temperaturunun gecə 0-3°, gündüz 4-6° isti, dağlarda gecə 0-4° şaxta, gündüz 0-3° isti olacağı bildirilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və konfederasiyanın İcraiyyə Komitəsi Azərbaycan Respublikası "İnşaat-İş" Həmkarlar İttifaqının sədri Umud Hüseynova əzizi

**RÜSTƏM NOVRUZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin rəhbərliyi və kollektivi Cənubi Muğan kanalı istismarı idarəsinin rəisi Kamil Mirzəyevə qardaşı

**ƏLİ MİRZƏYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Gəncə Apelyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudov Qaradağ Rayon Məhkəməsinin sədri Sədrəddin Hacıyevə əzizi

**SABİR HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8204
Sifariş 134
Qiyməti 40 qəpik